# MEHRİBAN ƏLİYEVA

# XOŞ NİYYƏT

BAKI - 2014

**Müəllif və tərtibatçı:**
*Nüşabə Ağaşova*

**Redaktor:**
*Aytən Əsədullayeva*

**Tərcüməçi:**
*Samirə Haşımzadə*

*“Xoş niyyət”*

*“Həyatda hər bir kəsin yerini və taleyini tarix müəyyən edir. Odur ki, nə böyük, nə də kiçik rollar olmur. Öz həyat kitabını yazmağa ancaq sənin şəxsi, dərk edilmiş məsuliyyətin imkan verir. Bu kitabda hər bir kəs özünü şəxsi həyatının və dünyanın qurub-yaradıcısı, yaxud dağıdıcısı kimi təcəssüm etdirir. Kimsənsə, elə də olmalısan – bax, budur bizim həyatımız. Ona görə də özgələrin rollarını və obrazlarını gərək öz üzərinə götürməyəsən. Çünki sən də, dünyada yerin də yeganə və bənzərsizdir”.*

**Mehriban Əliyeva**

Müqəddəs varlıq olan qadın bəşər mədəniyyətinin yaranmasında və təşəkkül tapmasında misilsiz xidmətlər göstərmişdir. Cəmiyyətimizdə qadına hər zaman böyük ehtiram, hörmət bəslənilmişdir. Hazırda dinamik inkişaf edən Azərbaycanın əldə etdiyi yüksək nailiyyətlərdə bütün ictimai-siyasi sahələr üzrə fəallıq göstərən Azərbaycan qadınlarının rolu danılmazdır. Azərbaycan qadını milli ənənəyə sadiq qalaraq bu gün də müstəqil Azərbaycanın güclənməsi naminə töhfələr verir. Tarixdə iz buraxmış qadınlarımızın şərəfli və mənalı ömür səhifələri ilə başqalarına örnək olması, dövrünün problemlərinə əsl ziyalı kimi yanaşması, ən ali zinəti xeyirxahlıq, nəciblik və saflıq hesab etməsi onların daim mənəvi ucalıqda dayanmasını təmin edir.

Şərqdə ilk dəfə olaraq seçib-seçilmək hüququ qazanan Azərbaycan qadını xalqın maariflənməsi, mədəniyyətimizin yüksəlişi, müasir iqtisadiyyatımızın qurulmasında daim peşəkarlıq nümayiş etdirir. Xalqımızın təşəkkül tapmasında, dövlət quruluşunun formalaşmasında, idarə edilməsində iştirak edən neçə-neçə cəsarətli, ağıllı qadının adı tariximizin qızıl səhifələrinə yazılmışdır. Ulu öndər Heydər Əliyevin kəlamlarının birində deyilir: *"Azərbaycan qadını tarix boyu öz ağlı, zəkası, namusu, qeyrəti, isməti, fədakarlığı, çalışqanlığı, mərdliyi, vətənpərvərliyi, millətinə, torpağına olan hədsiz məhəbbəti, gözəlliyi və Azərbaycan xalqının xüsusiyyətləri ilə tanınmışdır"*.

Müasir dövrümüzdə Azərbaycan qadını ziyalı, mübariz, iddialı bir qadındır. Tarix boyu siyasi arenada sözünün kəsəri olan xanımlarımız yetişmiş, haqq səsimizi dünyaya çatdırmışdır. Hazırki dövrdə Azərbaycan qadını dedikdə, ilk növbədə, gözümüzün qarşısında nümunəvi xanımlığı ilə seçilən, ictimai-siyasi fəaliyyətində bir sıra uğurlara imza atmış, beynəlxalq arenada humanist, xeyirxah qadın obrazı olaraq tanınan ölkəmizin birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyeva canlanır. Mehriban xanım bir azərbaycanlı xanım olaraq daim humanizm, mərhəmət kimi dəyərlərə malik olmuş, həmçinin dövlət strukturlarında, siyasi arenada və digər sahələrdə istedadlı mütəxəssis olaraq xüsusi fəallıq göstərmişdir.

Hər zaman yüksək intellekti, zəngin erudisiyası, geniş dünyagörüşü, əhatəli yaddaşı, hadisələrə özünəməxsus yanaşma tərzi, səmimiyyəti, təvazökarlığı və xeyirxahlığı ilə seçilən Mehriban xanım Əliyeva ictimai-siyasi həyatda

geniş fəaliyyət dairəsinə sahib olmaqla yanaşı Azərbaycan qadınlarına xas olan ən nəcib xüsusiyyətləri özündə təcəssüm etdirən, qoruyan gözəl həyat yoldaşı, övlad sevgisi ilə yaşayan mehriban xanım, zərif qadındır. Yüksək vəzifələr, titullar, təltiflər, ictimai həyatda fəallıq onu ecazkar gözəllik, zəriflik, yüksək zəka, zəhmətkeşlik, qayğıkeşlik, həssaslıq, yüksək əxlaq və s. kimi insani keyfiyyətlərdən əsla məhrum etməmişdir. Şübhəsizdir ki, bütün bu insani keyfiyyətlərilə Mehriban xanım ürəklərə yol tapmış, hər kəsin sevgisini, ehtiram və məhəbbətini qazanmışdır. Fədakar əməyi, əvəzsiz xidmətləri, xeyirxah və nəcib əməlləri ilə daim nümunəvi qadın obrazına çevrilən Mehriban xanım Əliyevanın arxada qoyduğu illər mənalı bir ömürdən, bu ömrün daşıyıcısının işıqlı şəxsiyyətindən, yüksək amallara sərf edilmiş həyatından xəbər verir. Onun əzəmətli soykökünün xoş əks-sədası isə illərin dərinliyindən eşidilir.

Azərbaycan ədəbiyyatının və elminin inkişafında müstəsna xidmətləri olan əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Mir Cəlal Paşayevin nəvəsi, öz dəsti-xəttilə təhsil sahəsində xüsusi iz qoyan fizika-riyaziyyat elmləri doktoru Arif Paşayev, görkəmli şərqşünas və ədəbiyyatşünas Aida xanım İmanquliyevanın qızı Mehriban xanım Əliyeva haqqında danışdıqca insanın qəlbində iftixar və fərəh hissi oyanır. Böyük elm xadimlərinin, görkəmli şəxsiyyətlərin ruhu ilə qidalanmaq, onların ailəsində tərbiyə almaq özü bir şərəfdir, fəxrdir. Boya-başa çatdığı mötəbər ziyalı mühitinin məlum təsirinin nəticəsidir ki, Mehriban xanımın həyat və fəaliyyəti milli ziyalı qadınlar içərisində bənzərsizliyi, dəyərli xüsusiyyətləri ilə seçilir.

Mehriban xanım Əliyeva 1964-cü il avqustun 26-da Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. O, təhsilinə 1982-ci ildə Bakı şəhərində yerləşən 23 №-li tam orta məktəbdə başlamış, müəllimlərin böyük hörmət və rəğbətini qazanaraq məktəbin sevimli şagirdinə çevrilmişdir. Orta məktəbi qızıl medalla bitirərək N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olmuşdur. İkinci kursdan təhsilini İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb İnstitutunda davam edərək 1988-ci ildə bu İnstitutu fərqlənmə diplomu ilə bitirmişdir.

Hələ ali təhsil almağa yenicə başladığı müddətdə Mehriban xanımın qismətinə iki ziyalı ailə arasında körpü yaratmaq, mehriban qohumluq münasi-

bətləri qurmaq yazılıbmış. Belə ki, 1983-cü ildə Arif Mir Cəlal oğlu Paşayevin qızı Mehriban xanım ümummilli lider, dahi şəxsiyyət Heydər Əliyevin oğlu İlham Əliyevlə ailə həyatı qurmuşdur. Xoşbəxt təməl üzərində qurulan bu ailə sonradan hər bir azərbaycanlı ailəsi üçün əsl nümunəyə çevrilmişdir. Mehriban xanım Əliyevanın doğulduğu, böyüdüyü və gəlin gəldiyi ailənin də Azərbaycan xalqının əbədi tarixi yaddaşında öz yeri və sanbalı vardır. Belə bir mühit onun yüksək biliyə, əxlaqi keyfiyyətlərə, mənəvi yüksəlişə sahib olması üçün böyük zəmin yaratmışdır.

Mehriban xanım təhsilini başa vurduqdan sonra, 1988-1992 illər ərzində Moskvada akademik Krasnovun rəhbərliyi altında Göz Xəstəlikləri Elmi-tədqiqat İnstitutunda fəaliyyət göstərmişdir.

Yüksək yaradıcılıq və təşkilatçılıq qabiliyyətinə malik olan Mehriban xanım fəaliyyət dairəsini genişləndirərək 1995-ci ildə Azərbaycan mədəniyyətinin geniş təbliği naminə Azərbaycan Mədəniyyətinin Dostları Fondunu yaratmışdır. Ölkənin birinci xanımı indiyədək bu Fonda rəhbərlik edir. Azərbaycan Mədəniyyətinin Dostları Fondu Mehriban xanımın Azərbaycan xalqının dünya mədəniyyətinə inteqrasiya olunması, yeni beynəlxalq əlaqələrin yaradılması baxımından həyata keçirdiyi ideyalarını özündə cəmləşdirir. Artıq Fond faydalı tədbirlərin beşiyinə çevrilmiş, beynəlxalq səviyyəli tədbirlər – festivallar, konsertlər, sərgilər təşkil etməklə əslində mədəniyyətimizin mükəmməl təbliğatçısı olmuşdur. Xalq musiqisinin, bənzərsiz muğamlarımızın, poeziyamızın inkişafında əvəzsiz xidmətləri olan Mehriban xanım Əliyevanın təşəbbüsü ilə "İpək yolunun musiqisi" festivalı, muğam dəstgahları, Yaponiya mədəniyyət günləri kimi tədbirlərin təşkil olunması xüsusilə təqdirəlayiq hadisələrdir. Ümumiyyətlə, Fond keçirdiyi mədəni tədbirlərin, təşkil etdiyi xeyriyyə aksiyalarının miqyasına, yüksək səviyyəsinə görə təkcə vətənimizdə deyil, dünyanın bir çox ölkələrində böyük diqqətə layiq görülmüş, beynəlxalq aləmdə böyük nüfuz qazanmışdır. 1996-cı ildən etibarən Fond tərəfindən üç dildə (Azərbaycan, ingilis, rus) "Azərbaycan-İRS" jurnalı nəşr olunur. Jurnalda Azərbaycan beynəlxalq arenada təkcə neft və qazla zəngin dövlət kimi deyil, həm də əksər sahələrdə – musiqi, arxitektura, təsviri və tətbiqi incəsənət sahələrində şedevrlər yaratmış ölkə kimi təmsil olunur.

Bir qadın olaraq hər zaman yüksək idarəçilik bacarığı ilə nəzərləri cəlb edən Mehriban xanım Əliyeva 2002-ci ildə Azərbaycan Gimnastika Federasiyasının prezidenti seçilməklə növbəti uğurlu layihəyə imza atmış, Azərbaycan gimnastikasının beynəlxalq arenada nüfuzunun artmasına nail olaraq özünü gözəl təşkilatçı kimi göstərə bilmişdir. Böyük səylərin, yorulmaz fəaliyyətin nəticəsidir ki, bu gün Azərbaycan idmanı gimnastika üzrə bir sıra uğurlara nail olmuşdur. Belə ki, Beynəlxalq Gimnastika Federasiyasının Bədii Gimnastika üzrə 2003 və 2004-cü il Dünya Kuboku yarışlarının və 2005-ci il Dünya Çempionatının, 2007 və 2009-cu illərdə Avropa birinciliyinin Azərbaycanda keçirilməsi barədə qərarın qəbulu məhz bu qəbildəndir. Sevindirici haldır ki, bu gün bədii gimnastika üzrə Azərbaycan yığma komandası dünyada böyük nüfuza malikdir. İdmançılar beynəlxalq turnirlərdə lider mövqeləri tutur, bayrağımızı zirvələrə ucaldırlar. *"Azərbaycan nisbətən bu yaxınlarda bədii və idman gimnastikası dünyasına daxil olub. Lakin bu müddət ərzində ölkəmiz böyük uğurlara nail olub. İdmançılarımız nüfuzlu beynəlxalq yarışlarda mükafatlar qazanırlar. Azərbaycan Avropa çempionatını qəbul edib, şəhərimizdə bədii gimnastika üzrə dünya çempionatı keçirilib. Və ən başlıcası, bu müddət ərzində gimnastika Azərbaycanda populyar və sevimli idman növü olub. Yarışlar və çempionatlar ölkəmizdə böyük maraq doğurur və tamaşaçılarla dolu zallarda keçirilir"* – nitqilə çıxış edən Mehriban xanım Əliyevanın Azərbaycanın sürətli inkişafı, dünyanın bir çox inkişaf etmiş ölkələri sırasında adının çəkilməsi, qüdrətinin nümayiş olunması istiqamətində əldə etdiyi bu nailiyyətləri danılmaz və qürurvericidir. Şübhəsizdir ki, Azərbaycan Gimnastika Federasiyası ildən-ilə inkişaf edən idman qurumlarının sırasındadır və ölkəmizdə bu idman növünün yüksəlişi istiqamətində görülən işlər cəmiyyət tərəfindən yüksək razılıqla qarşılanır.

Ölkəmizin tərəqqisi, müstəqillik yolunda inamla addımlaması naminə ulu öndər Heydər Əliyev siyasi kursunun davam etdirilməsi, Azərbaycan xalqının sevimli liderinin sağlığında həyata keçirməyə ömrü yetmədiyi ideyalarının davamlı olaraq ardıcıl surətdə gerçəkləşdirilməsi artıq bir amala çevrilmişdir. Ümummilli liderimizin zəngin dövlətçilik irsinin öyrənilməsi, ölməz ideyalarının geniş təbliğ olunması və gələcək nəsillərə aşılanması müasir dövrümüzdə

xüsusi aktuallıq kəsb edir. Məhz bu səbəbdən 2004-cü il 10 may tarixində Mehriban xanımın rəhbərliyi altında Heydər Əliyev Fondunun təntənəli açılışı həyata keçirilmişdir. Fond əsas olaraq ictimai əlaqələrin möhkəmləndirilməsilə Azərbaycanın hərtərəfli inkişafına xidmət edir. Öz çıxışında Mehriban xanım qeyd edir ki, *"Heydər Əliyev Fondu hər bir təşkilatla, hər bir qurumla və hər bir vətəndaşla əməkdaşlığa daim açıq olan qurumdur və mən inanıram ki, biz birlikdə ölkəmizin inkişafı və xalqımızın gələcəyi naminə hələ çox-çox böyük işlər görəcəyik".*

Azərbaycanın birinci xanımı öz əzmkar fəaliyyəti ilə hər zaman Heydər Əliyev irsinin təbliğinə və gələcək nəsillərə çatdırılmasına, ümummilli liderin həyata keçməyən böyük arzularının reallaşmasına çalışmışdır. Onun bir sıra xarici səfərlərdə Ulu öndərin yanında olması, onun fitri idarəçilik məktəbini yaxından tanıması önəmli faktorlardandır. Heydər Əliyevin parlaq şəxsiyyətinə, xarakter cizgilərinə, ideallarına yaxından bələd olması Mehriban xanım Əliyevaya Ümummilli liderin zəngin ideya-siyasi irsinin yaşadılması və təbliği kimi çətin bir missiyanın öhdəsindən layiqincə gəlməyə imkan verir.

Uğurlu və əhəmiyyətli layihələri inamla həyata keçirən, qısa müddət ərzində xalqımızın ümid yerinə çevrilən Heydər Əliyev Fondunun əsas qayəsi müxtəlif sahələr üzrə humanitar fəaliyyəti ilə fərqlənməkdir. Burada uşaq evlərinin, internat məktəblərinin abadlaşdırılması və maddi bazalarının yaxşılaşdırılması, valideyn himayəsindən məhrum olan uşaqlara, sosial imkanları zəif olan insanlara, aztəminatlı vətəndaşlara, ailələrə, qaçqınlara və məcburi köçkünlərə, təbii fəlakətlərdən zərər çəkmiş insanlara köməkliyin göstərilməsi ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir.

Humanizm prinsiplərinə söykənən praktik fəaliyyəti ilə cəmiyyətdə böyük ictimai nüfuz qazanmış Heydər Əliyev Fondu bu gün kimsəsiz, köməyə ehtiyacı olan insanların maddi-mənəvi hamisi kimi çıxış edir. Xeyirxahlıq, mərhəmət, ehtiyacı olanlara yardım göstərmək, haqqı daim uca tutmaq Azərbaycan xalqına  xas olan ülvi və saf mənəvi meyarlar kimi Fondun fəaliyyətində də parlaq xətt təşkil edir. Bu gün Mehriban xanım Əliyevanın rəhbərliyi altında Fond insanlara ən müxtəlif səviyyələrdə yardım göstərməklə həm də cəmiyyətdə sağlam ənənələrin bərqərar olmasına, zəngin əxlaqi dəyərlərin daim yaşamasına çalışır.

Fondun fəaliyyətinin əsas istiqamətlərindən birinin məhz humanitar sahəyə yönəldilməsi olduqca təqdirəlayiq hadisədir. Hər zaman insanların ağrı-acısını duyan, dərdlərinə şərik olan, uşaqların taleyinə böyük həssaslıqla yanaşan, uşaq evlərində ata və ana məhəbbətindən uzaq olanların qayğısına qalan, onları himayəyə götürən, həyat şəraitlərini yaxşılaşdırmaq üçün yerləşdikləri mərkəzləri təmir və bərpa etdirərək onlar üçün hər cür şəraitin yaradılmasına çalışan, həyata keçirdiyi layihələr əsasında azərbaycanlı uşaqların maarifləndirilməsi və sağlam ruhda tərbiyə olunmasına yardımçı olan zərif, incə qəlbli Mehriban ana xalqın ürəyində böyük bir taxt qurmuşdur. Xalqın anası və vicdan səsi olan Mehriban xanımın bütün fəaliyyəti yaxşılığa, şəfqətə, mənəvi-əxlaqi dəyərləri ucaltmağa çağırışdır. Bütün rahatlığını insanların xoş əhvali-ruhiyyəsində tapan, bu illər ərzində yalnız sosial-ictimai fəaliyyəti ilə deyil, həm də xoş ünsiyyəti, təvazökarlığı, xeyirxahlığı ilə seçilən Mehriban xanım Əliyevanın həyatda tutduğu yol – neçə-neçə nəslə uğurlu fəaliyyətin sirlərini öyrətmək, mənəviyyatımızın saflığını, zənginliyini qorumaq yoludur.

Ölkəmizin birinci xanımı, hörmətli prezidentimizin silahdaşı Mehriban xanım Əliyeva örnək fəaliyyəti ilə, həmçinin qadın hərəkatını canlandırmaqla Azərbaycan qadınlarının ölkədə gedən geniş quruculuq işlərində daha böyük fəallıq göstərməsinə nail olmuşdur. Böyük xeyriyyəçi kimi müqəddəs analığın xidmətində duran Mehriban xanımın təşəbbüsü ilə əlil və valideyinsiz uşaqlara sosial himayə göstərilməsi həqiqətən bir ənənəyə çevrilmişdir. Bu gün hətta gənc tələbələr belə vəsait toplayıb uşaq evlərinə, internat məktəblərinə, fiziki cəhətdən qüsurlu uşaqların tərbiyə aldığı mərkəzlərə gedir, valideyn himayəsindən məhrum olan uşaqlara maddi və mənəvi yardımlar göstərərək onların sevincinə səbəb olurlar. Bu alqışalayiq addım daima ana şəfqətini, milli dəyərlərə pərəstişi böyük sevgi hissi ilə nümayiş etdirən Mehriban xanımı təqlid edərək yolundan getmək istəyən gənclərimizin yüksəliş əlamətləridir. Heç şübhəsizdir ki, bu və ya digər addımlar Azərbaycan qadınının mənəvi dəyərlərini üzə çıxarır, onların böyük ürəyə malik olduğunu göstərir. Tarixin səhifələrinə nəzər salsaq görərik ki, əzəldən bəri humanizm və xeyriyyəçilik kimi məfhumlar Azərbaycan qadınının mənəvi dəyərlərinin göstəricisi olmuşdur.

Hər zaman insanlarla səmimi ünsiyyəti ilə seçilən, onların problemlərinə ürək yanğısı ilə yanaşaraq kömək və dəstəyini əsirgəməyən, daim xalqın sıravi

nümayəndələrinin maraqlarını qorumağa çalışan Mehriban xanım Əliyeva həm ölkə daxilində, həm də ölkə sərhədlərindən kənarda böyük hörmət və etimad qazanmışdır. O, hər zaman humanizm ideyalarına və xalqına arxalanmış, onun atdığı hər addım ölkəmizə uğur gətirmişdir. Həmçinin rəhbərlik etdiyi Heydər Əliyev Fondu da həm daxili, həm də xarici siyasətdə respublikamıza qarşı olan müsbət imicin formalaşmasında böyük rol oynamışdır. Fondun əsas amalı Azərbaycan xalqına xidmət, ölkəmizi dünyada layiqincə təmsil etməkdir.

Heydər Əliyev Fondunun hər kəsdə fərəh və qürur hissləri doğuran çoxşaxəli fəaliyyətinin əsasında, əlbəttə ki, onun prezidenti, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın əzmkarlığı, təşəbbüskarlığı, həyata keçirilən proqram və layihələrə və ümumən Fondun fəaliyyətinə yaradıcı münasibəti dayanır. Fondun çoxşaxəli fəaliyyətinin bir əsas məqsədi var – *"İnsanlara təmənnasız yaxşılıq!"* Bunu Mehriban xanım dəfələrlə öz çıxışları zamanı bəyan etmişdir.

*"Xeyriyyəçilik, insansevərlik, mərhəmət Azərbaycan xalqının mentalitetinə, mədəniyyətinə, əsrlər boyu formalaşan ənənələrimizə xas olan ən gözəl keyfiyyətlərdən biridir və bu gün biz Heydər Əliyev Fondu olaraq bu ənənələri qoruyur və davam etdirməyə çalışırıq"* – deyərək Mehriban xanım Fondun fəaliyyətinin əsas istiqamətini məhz belə açıqlamışdır.

Heydər Əliyev Fondunun ən ümdə vəzifələrindən hesab olunan qaçqın və məcburi köçkünlərin, Qarabağ müharibəsi əlillərinin və şəhid ailələrinə daimi qayğı göstərilməsi və bu fəaliyyətin bir sıra başqa aspektləri olduqca təsirli və diqqətçəkəndir. "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı" çərçivəsində həmin müəssisələrdə aparılan əsaslı təmir işləri, lazımi avadanlıqlarla təmin edilməsi cəmiyyət tərəfindən hər zaman böyük sevinclə qarşılanmışdır. Proqram üzrə yaradılmış işçi qrupu respublikada fəaliyyət göstərən uşaq evləri və internat məktəblərində mövcud problemlərin araşdırılması məqsədi ilə monitorinq aparmış, bu müəssisələrdə uşaqların sayı, aylıq və illik dövlət təminatına daxil olan qida, geyim, texniki vəsait normativləri, ümumi şərait (təhsil, səhiyyə, yaşayış, istirahət) kimi göstəriciləri müəyyən etmişdir. Araşdırmadan sonra uşaq evlərinə və internatlara texniki dəstək, təhsil və səhiyyənin inkişafına kömək əsas istiqamətlər kimi önə çəkilmişdir.

“Uşaq evləri və internat məktəblərinin inkişafı” Proqramı çərçivəsində respublika üzrə 30-dan çox uşaq müəssisəsi əsaslı şəkildə təmir edilmiş, yeni avadanlıqla təchiz olunmuş, əlavə yardımçı binalar inşa edilmiş və kommunal şərait yaxşılaşdırılmışdır. Müəssisələrdə kitabxanalar yaradılmış, onlar müvafiq tədris vəsaiti və bədii ədəbiyyatla təmin olunmuş, əksər uşaq evləri və internat məktəblərində kompyuter avadanlıqları quraşdırılmış, sinif otaqları interaktiv təhsil üçün uyğunlaşdırılmışdır. Uşaqların hərtərəfli inkişafı üçün müvafiq şəraitin yaradılması məqsədilə müəssisələrdə mütəmadi olaraq treninqlər keçirilir.

Uşaq evləri və internat məktəblərində tərbiyə alan yeniyetmələrə vətənpərvərlik hissinin aşılanması, onların istirahətinin və asudə vaxtlarının səmərəli təşkili məqsədi ilə Heydər Əliyev Fondu ardıcıl olaraq kütləvi tədbirlər, festivallar, müsabiqələr keçirir, müəssisələrdəki özfəaliyyət kollektivlərinə, musiqi, rəqs, xalçaçılıq, rəssamlıq dərnəklərinə lazım olan köməyi əsirgəmir. Fəaliyyət göstərdiyi dövr ərzində Fondun himayə etdiyi bütün uşaq müəssisələrinin musiqi dərnəkləri yeni musiqi alətləri ilə zənginləşdirilmiş, rəqs kollektivləri zəruri vəsaitlərlə təmin edilmişdir.

2009-cu ildə Fondun təşəbbüsü ilə uşaq evlərində tərbiyə almış, yaşı 18-dən yuxarı olan qızlar üçün Bakının Nizami rayonunda inşa edilmiş 50 mənzillik yaşayış binası istifadəyə verilmişdir. Binadakı mənzillər zəruri məişət avadanlığı ilə təmin olunmuşdur.

Fond uşaqların dünyagörüşünün genişləndirilməsi məqsədi ilə xarici ölkələrdə keçirilən beynəlxalq müsabiqələrdə onların iştirakını təmin edir, həmçinin digər ölkələrin analoji müəssisələrində tərbiyə alan uşaqların Azərbaycana gəlməsi və ölkəmizlə tanış olması üçün şərait yaradır.

Uşaq evlərində tərbiyə alan gənclərin mənzillə təmin olunması kimi daim cəmiyyətimizi narahat edən mühüm problemin həllinə də məhz Mehriban xanım Əliyevanın xeyirxahlığı sayəsində nail olunmuşdur. Göründüyü kimi, uşaqlara qayğı və diqqət, gələcək nəslin fiziki və mənəvi cəhətdən sağlam böyüməsi Heydər Əliyev Fondunun fəaliyyətində prioritet istiqamətlərdən biridir. Uşaqlarımızın xoşbəxt gələcəyi üçün əlindən gələni əsirgəməyən Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə hər il

Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il ərəfəsində müxtəlif orta məktəblərin təhsildə fərqlənən şagirdləri, uşaq evləri və internat məktəblərində tərbiyə alan, qaçqın və məcburi köçkün ailəsindən olan, valideyn himayəsindən məhrum uşaqlar üçün şənlik təşkil edilir.

Hər birimizin gələcəyi, ümidi olan uşaqların üzündə təbəssüm yaratmaq sanki Mehriban xanıma dünyaları bəxş edir. *"Sizin sevinciniz Heydər Əliyev Fondunun fəaliyyətinin ən böyük uğurudur"* – deyə, xüsusilə vurğulayan Mehriban xanım öz əməlləri ilə təkcə müasirlərinin deyil, həm də gələcək nəsillərin qarşısında cavabdehlik daşıdığını dərk edir, mənalı ömür yolu ilə başqalarına örnək olur, dövrünün problemlərinə əsl ziyalı yanğısı ilə yanaşır.

Şübhəsizdir ki, hər kəsin böyük ümidlə, rəğbətlə qarşıladığı Heydər Əliyev Fonduna Mehriban Əliyeva kimi humanist, böyük ürəyə sahib olan bir qadın, hər şeydən öncə bir ana rəhbərlik edirsə, çox kiçik yaşlarından həyatın əziyyətli, ağrılı pillələrində addımlayan valideyn himayəsindən məhrum azyaşlı uşaqlara, yeniyetmələrə, gənclərə laqeyd yanaşmaq mümkünsüzdür. Mehriban xanım ana olduğu üçün gördüyü işlər də ana məhəbbətinin gücündən, ana ürəyinin böyüklüyündən xəbər verir. O, hər kəsə böyük sevgi, məhəbbət, nəvaziş göstərməklə necə incə, zərif qəlbə malik olduğunu dəfələrlə nümayiş etmişdir. Uşaqlara qayğı göstərilməsini ən əsas vəzifə hesab edən Mehriban xanım Əliyeva onların sevgilə böyüməsi, bütün ehtiyaclarının ödənilməsi üçün fədakarlıq göstərir, öz missiyasını böyük inamla yerinə yetirir.

Əlbəttə ki, hər bir xalqın gələcəyi sayılan gənclərin intellektual inkişafını təmin etmədən onların milli-mənəvi dəyərlərə bağlı şəxsiyyət kimi yetişməsinə nail olmaq qeyri-mümkündür. Elm və təhsilin yüksək inkişafı hər bir ölkənin, xalqın gələcəyi üçün vacib şərtlərdəndir. Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr sırasında elm və təhsilin, müasir informasiya texnologiyalarının mühüm yer tutması məhz bu reallığa əsaslanır.

Müstəqilliyimizin banisi ulu öndər Heydər Əliyevin *"Təhsil millətin gələcəyidir"* şüarını əsas tutaraq bu gün ölkə ərazisində təhsil sahəsi üzrə yüksək inkişafa nail olunmuşdur. Yeni təlim-tədris müəssisələrinin yaradılması, bir çoxunun bərpası təhsil səviyyəsinin yüksəldilməsinə xidmət edən amillərdəndir. Mehriban xanımın təşəbbüsü ilə tikilən məktəblərdə gənclərin yüksək sə-

viyyədə təhsili, inkişafı üçün lazım olan bütün şərait yaradılır. Gənclərin boş vaxtlarının zərərli meyillərə yönəlməsinin qarşısının alınması, vaxtın daha səmərəli xərclənməsi, gənclərin bir vətəndaş kimi yetişməsi daim onun diqqət mərkəzindədir və bu sahədə xeyli sayda layihələr həyata keçirilməkdədir.

Mehriban xanım Əliyevanın Azərbaycan maarifinin dirçəldilməsi istiqamətində miqyası görülməmiş məktəb tikintisi və yenidən qurulması layihələri xüsusilə ucqar bölgələrimiz üçün həqiqi bir mədəni inqilabdır. Hazırda elə bir bölgə yoxdur ki, orada bir məktəb belə tikilməsin. Xalqın gələcəyi, balalarımızın xoşbəxt sabahı üçün yeni məktəblər tikməkdən, onlara cəmiyyətin ümumi qayğısını göstərməkdən səmərəli heç nə ola bilməz.

Fondun təhsillə bağlı qarşıya qoyduğu əsas məqsəd Azərbaycanda bu sahəni müasir dövrün tələblərinə uyğunlaşdırmaqdır. Məhz bu məqsədlər uğrunda Fond strateji hədəflərə doğru inamla addımlamış, bir sıra uğurlu nəticələr əldə etmişdir. Azərbaycanın birinci xanımının cəmiyyətin maariflənməsinə xidmət edən təhsil layihələrinin əsasını bölgələrdə yeni məktəblərin inşası, onların maddi-texniki təchizatının yaxşılaşdırılması təşkil edir. Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilən, dövlət qurumlarının və vətəndaş cəmiyyətinin bəzi strukturlarının da dəstəklədiyi "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində az müddət ərzində iki mərhələdə xeyli sayda məktəb tikilib istifadəyə verilmişdir. Proqram çərçivəsində tikilən və infrastrukturu yerli tələbata və imkana uyğunlaşdırılan məktəblər müasir avadanlıq, istilik sistemi, zəngin kitabxanalar, əyani vəsait və kompyuter avadanlığı ilə təchiz olunmuşdur.

Keçmiş ittifaqın iqtisadi cəhətdən ən qüdrətli dövründə belə Azərbaycanda bir ildə bu qədər məktəb tikilməmişdir. Lakin Heydər Əliyev Fondu bu fantastik göstəriciyə nail olmaqla sübut etdi ki, yüksək əzm və iradə, ən əsası isə vətənpərvərlik milli inkişafda son dərəcə vacib amildir. Qeyd edək ki, Fond hər il "Təhsilə dəstək" layihəsi çərçivəsində Ermənistanın Azərbaycana təcavüzü nəticəsində daimi yaşayış yerlərini tərk etmiş qaçqın, məcburi köçkün ailələrindən olan birinci sinif şagirdlərinə çanta və məktəb ləvazimatı hədiyyə edir. Gürcüstanın azərbaycanlılar yaşayan bölgələrindəki məktəblərə, Azərbaycanın Qax, Zaqatala və Balakən rayonlarında tədrisin gürcü dilində aparıldığı mək-

təblərə də mütəmadi olaraq yeni dərslik və tədris ləvazimatları göndərilir. Bir sıra xarici təşkilat və şirkətlərin (“World Vision”, “JP Morgan”, “Exxon Mobil”, Rusiyanın “Puşkin kitabxanası” Fondu) Fonda hədiyyə etdikləri müxtəlif adda çoxsaylı nəşrlər ölkənin ali və ümumtəhsil məktəblərinə, uşaq evləri və internat məktəblərinin kitabxanalarına paylanmışdır. Bundan əlavə, Fond hər il yeni faydalı nəşrlər hazırlayaraq aidiyyatı üzrə təhsil müəssisələrinə paylayır. Layihə çərçivəsində, həmçinin təhsilin birinci pilləsi sayılan məktəbəqədər uşaq tərbiyə müəssisələrinin yenidən qurulması işləri də həyata keçirilmişdir. Belə ki, 2005-2012-ci illər ərzində respublika üzrə 20-dək uşaq bağçası əsaslı təmir olunaraq müasir avadanlıqlarla təchiz edilmişdir. Fond tərəfindən 2008-ci ildə məktəbəqədər müəssisələr üçün nəzərdə tutulmuş müxtəlif mövzulu plakatlar, multimedia diskləri, tablolar, oyun və digər əyani vəsaitlər buraxılmışdır. Bu vəsaitlər mütəmadi olaraq hər il sözügedən müəssisələrə paylanır.

Azərbaycanın beynəlxalq arenada imicinin yüksəldilməsi istiqamətində uğurlu addımlar atan Mehriban Əliyevanın fəaliyyəti artıq qlobal xarakter daşımağa başlamışdır. Artıq Heydər Əliyev Fondu bir sıra xarici ölkələrdə də təhsilə qayğı göstərir, məktəblər tikdirir, xeyriyyəçilik işlərini davam etdirir. Məsələn, Əfqanıstan və Pakistanda artıq belə məktəblər tikilmişdir. Fondun dünyanın bir neçə ölkəsində yaradılan nümayəndəliklərinin xeyriyyəçilik işləri gündən-günə daha da artmaqdadır.

Heydər Əliyev Fondunun “Təhsilə dəstək” layihəsi çərçivəsində Gürcüstan, Misir, Rumıniya, Rusiya Federasiyası, Pakistan və Hollandiyada da bir sıra məktəblər yenidən qurulmuş və əsaslı təmir olunmuşdur. Pakistanın Müzəffərabad şəhərinin zəlzələdən sonra dağılmış Rara ərazisində qızlar üçün yeni orta məktəb binasının inşası ən uğurlu və önəmli layihələrdəndir.

Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə 2008-ci ildə Gürcüstanın Dmanisi rayonunda yeni kompyuter tədris mərkəzinin binası inşa edilmişdir. 2010-cu ildə Gürcüstanın Marneuli şəhərindəki 7 nömrəli Azərbaycan ümumtəhsil məktəbi, Tiflisdəki M.F.Axundzadə adına 73 nömrəli orta məktəb, Qardabanidəkı 3 nömrəli Azərbaycan məktəbi və Dmanisidəki 2 nömrəli Azərbaycan beynəlxalq orta məktəbi əsaslı təmir olunaraq istifadəyə verilmişdir.

2010-cu ildə isə Rusiya Federasiyasının Ulyanovsk şəhərindəki 78 nöm-

rəli orta ümumtəhsil məktəbinin binası əsaslı təmir edilmişdir. 2011-ci ildə Heydər Əliyev Fondunun təşəbbüsü ilə Gürcüstanın Bolnisi rayonunun Həsən Xocalı və Cəfərli kəndlərində yeni məktəb binaları inşa edilərək istifadəyə verilmişdir.

Rusiya paytaxtında və ayrı-ayrı şəhərlərdə fəaliyyət göstərən Azərbaycan məktəblərinə göstərilən müntəzəm qayğını da xüsusilə qeyd etmək lazımdır. Göründüyü kimi, ölkəmizdə təhsilin sürətli inkişafı, gələcək nəsillərin təlim-tərbiyəsinin yüksək səviyyədə qurulması, onların Azərbaycanın layiqli vətəndaşları kimi yetişməsi, təhsil sahəsində mövcud problemlərin aradan qaldırılması istiqamətində həm dövlət xətti ilə, həm də Heydər Əliyev Fondu tərəfindən bütün mümkün vasitələrdən istifadə olunur.

Qeyd etmək lazımdır ki, Fondun son illərdəki əsas fəaliyyət istiqamətlərindən biri də ölkənin təhsil problemlərinin həllində nüfuzlu beynəlxalq təşkilatlardan sayılan YUNESKO-nun geniş imkanlarından səmərəli şəkildə faydalanması olmuşdur. Belə ki, Azərbaycanla YUNESKO arasında bir neçə istiqamətdə əməkdaşlıq münasibətləri qurulmuşdur. Bu əlaqələr, əsasən, “Təhsil hamı üçün” proqramını, “Assosiativ məktəblər”, texniki-peşə sahəsində əməkdaşlıq, inklüziv təhsil layihəsi, ali məktəblərdə YUNESKO kafedralarının yaradılması və digər sahələri əhatə edir.  Milli ruha söykənən təhsilin məzmunca yenilənməsi, məktəblərdə informasiya texnologiyalarının geniş tətbiqi və digər bu kimi planlar da bu qurumla əməkdaşlığa daxil olan əsas məsələlərdəndir.

Fondun səhiyyə ocaqlarının bərpa edilməsi və inşası ilə bağlı layihələri də öz uğurlu nəticələrini vermişdir. Daim insanların sağlamlığına xidmət edən bir sıra tibb müəssisələri yenidən qurulmuş və bərpa edilmiş, inkişaf etmiş ölkələrdən gətirilmiş dünya standartlarına uyğun müasir tibbi avadanlıqlarla təchiz olunaraq istifadəyə verilmişdir.

Heydər Əliyev Fondu 2004-cü ildən “Diabetli uşaqlara ən yüksək qayğı” layihəsini həyata keçirir. Azərbaycan Diabet Cəmiyyəti və Danimarkanın “Novo Nordisk” şirkəti ilə birlikdə reallaşdırılan layihə şəkərli diabet xəstələrinin səhhətini yaxşılaşdırmaq və xəstələri müasir müalicə vasitələri ilə təmin etmək məqsədi daşıyır. Layihə çərçivəsində 2004-cü ildən başlayaraq Azərbaycanda diabet xəstəliyinə düçar olmuş xəstələr müntəzəm olaraq insulin preparatları

və şpris-qələmlərlə təmin edilirlər. Layihə çərçivəsində 2009-cu ildə Heydər Əliyev Fondunun dəstəyi ilə sosial qayğıya xüsusi ehtiyacı olan, şəkərli diabet xəstəliyinə tutulmuş uşaqların sosial-psixoloji reabilitasiyası üçün Lənkəran şəhərində, 2010-cu ildə isə Gəncə şəhərində istirahət düşərgələri təşkil olunmuşdur. 2007-ci ildə BMT-nin təşəbbüsü ilə Dünya Diabet günü kampaniyasına qoşulmuş Heydər Əliyev Fondunun binası həmin il noyabrın 13-dən 15-dək mavi rənglə işıqlandırılmışdır. BMT-nin qətnaməsinə əsasən, bu təşkilata üzv olan bütün ölkələrdə noyabrın 14-ü Dünya Diabet günü kimi qeyd edilir. Təşkilatın rəmzi olan mavi rəng bütün millətlərin başı üstündəki səmanı əks etdirir və bu aksiyanın keçirildiyi 155 ölkədə şəhərlərin möhtəşəm binaları məhz bu rəngə boyanır. Məqsəd ictimaiyyətin diqqətini dünya miqyasında sağlamlığa ciddi təhlükə mənbəyi olan diabetə yönəltmək və onun qarşısını almaq istiqamətində səyləri birləşdirməkdir.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə Azərbaycanda ixtisaslaşdırılmış tibb ocağının və qan bankının yaradılması, ölkəmizdə yüksək ixtisaslı kadrların hazırlanması, talassemiyadan əziyyət çəkən uşaqların təhlükəsiz və keyfiyyətli qanla təmin olunması üçün könüllü donor xidmətinin inkişafı, talassemiyanın yayılmasının qarşısını almaqdan ötrü əhalinin maarifləndirilməsi və talassemiya ilə mübarizə aparan bir sıra dövlətlərlə əməkdaşlığın genişləndirilməsi məqsədi ilə Bakıda Talassemiya Mərkəzi inşa edilmişdir. “Talassemiyasız həyat naminə” layihəsi çərçivəsində inşa edilən mərkəz 2009-cu il mayın 9-da istifadəyə verilmişdir. Mərkəzin istifadəyə verilməsi Heydər Əliyev Fondunun əhalinin sağlamlığının qorunmasına ən dəyərli töhfələrindən biri olmaqla talassemiyalı uşaqların və onların valideynlərinin böyük ümid yerinə çevrilmişdir.

Şübhəsizdir ki, insan üçün ən vacib şərt onun sağlamlığıdır. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən xeyriyyəçilik tədbirlərinin nəticəsində yüzlərlə insan normal sağlam həyata qaytarılmışdır.

Qeyd olunanlarla yanaşı çoxşaxəli fəaliyyətilə hər kəsin ümid və pənah yerinə çevrilən Heydər Əliyev Fondunun dəstəyi ilə görmə qabiliyyətini itirmiş və görmə qabiliyyəti zəif olan insanların cəmiyyətə inteqrasiyası istiqamətində görülən işlər intensiv xarakter almışdır. Onların təhsil almaları, ixtisaslara

yiyələnmələri, bu insanlara tibbi xidmətin təşkili, məşğulluqlarının təmin olunması, mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması üçün bir neçə layihə reallaşdırılmışdır.

Hələ 2005-ci il dekabrın 9-da Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva BMT-nin İnkişaf Proqramı ilə birgə "Görmə qabiliyyətini itirmiş və görmə qabiliyyəti zəif olan insanlar üçün informasiya kommunikasiya texnologiyalarına çıxışın təmin edilməsi"nə dair əməkdaşlıq sazişi və layihə sənədi imzalamışdır. Mehriban xanım bildirmişdir ki, hazırda Azərbaycanda 320 min əlil insan yaşayır. Onlardan 40 mini kor və görmə qabiliyyəti zəif olan şəxslərdir. Layihənin məqsədi məhz bu insanların cəmiyyət həyatında fəal iştirakına, informasiya-kommunikasiya texnologiyaları vasitələri ilə bilik və məlumat əldə etmək imkanlarının genişləndirilməsinə, məşğulluqlarının artırılmasına, ümumən bu insanların yaşayış tərzini yaxşılaşdırmağa xidmət edəcəkdir. Artıq bu layihənin üzərindən illər ötmüşdür. Bu müddət ərzində həyata keçirilən tədbirlər bir daha sübut etdi ki, deyilənlər sadəcə dildə qalmamış, reallığa qovuşmuşdur.

Mehriban xanım bu işləri daim nəzarətdə saxlayaraq layihənin reallaşmasına yaxından köməklik göstərmişdir. "Görmə qabiliyyətini itirmiş və görmə qabiliyyəti zəif olan insanlar üçün informasiya-kommunikasiya texnologiyalarına çıxışın təmin edilməsi" layihəsi çərçivəsində Nərimanov rayonundakı kor və zəif görən uşaqlar üçün respublika internat məktəbində müvafiq mərkəz yaradılmışdır.

Burada uşaqlar üçün model İKT sinifləri yaradılmış, proqram təminatı lokallaşdırılmış, internetə çıxışın təmin olunması və tədris-təlim proqramlarının hazırlanması, audio studiya və kitabxananın fəaliyyəti təmin edilmişdir. Elektron kitabxana üçün Almaniya istehsalı olan 2 kompyuter dəsti quraşdırılmışdır. Bu kompyuterlər xüsusi olaraq kor və görmə qabiliyyəti zəif uşaqlar üçün hazırlanmış ən son model texnologiyadır. Brayl əlifbası ilə Azərbaycan, rus və ingilis dillərində olan istənilən kitabı kompyuterin yaddaşına köçürüb oxumaq, səsləndirib dinləmək mümkündür. Musiqiyə qulaq asmaq, internetə girmək, məktublaşmaq, 100 min səhifəlik materialı yaddaşda saxlamaq, surətini çıxarmaq, o cümlədən mobil telefonlara da mesaj göndərmək mümkündür.

Heydər Əliyev Fondu Azərbaycan Gözdən Əlillər Cəmiyyətinə "Mini informasiya laboratoriyası" da hədiyyə etmişdir. Mini laboratoriyaya xüsusi kompyuter masası, kompyuter dəsti, gözdən əlil şəxslərə müxtəlif informasiyaları əldə etmək və ötürmək imkanı yaradan proqram sistemi daxildir.

Ulu öndərin zəngin irsini, həmçinin müəllifi olduğu azərbaycançılıq fəlsəfəsini, ideyasını təbliğ etmək, gələcək nəsillərə çatdırmaq missiyasını öhdəsinə götürən Heydər Əliyev Fondunun Azərbaycan mədəniyyətinin təbliği istiqamətində həyata keçirdiyi tədbirlər sırasına dünyanın müxtəlif ölkələrində Azərbaycan mədəniyyəti günlərinin həyata keçirilməsi də daxildir.

2013-cü ilin iyul ayında Fondun təşkilatçılığı ilə Fransada keçirilən "Azərbaycan Kannda" mədəniyyət günlərinin rəsmi açılışında iştirak edən Mehriban xanım Əliyeva çıxışı zamanı mədəniyyəti müxtəlif xalqların bir-birini daha yaxından tanıması üçün əsas vasitə adlandırmışdır: *"Biz azərbaycanlılar öz qədim və zəngin tariximiz və mədəniyyətimizlə fəxr edirik, dünyada Azərbaycanı əsrlər boyu mədəniyyətlərin və sivilizasiyaların qovuşduğu sülhsevər, qədim və bərəkətli bir torpaq kimi tanıtmaq istəyirik"*.

Qədim və zəngin musiqi mədəniyyətinə malik Azərbaycan musiqisinin ən dəyərli nümunələrindən olan muğamın qorunması, yaşadılması və dünyaya tanıdılmasında Mehriban xanım Əliyevanın əvəzsiz xidmətləri vardır. Qeyd etmək lazımdır ki, dövlət başçısı cənab İlham Əliyevin və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın səmərəli fəaliyyətinin nəticəsi olaraq hələ 2003-cü ildə Azərbaycanın muğam sənəti YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir. Bu addım muğam sənətinə olan böyük diqqətin təcəssümüdür.

Heydər Əliyev Fondunun bir sıra dövlət qurumları ilə birgə təşkil etdiyi və 2009-cu ildən etibarən həyata keçirilən Respublika muğam müsabiqəsi və Beynəlxalq Muğam Festivalı ölkə daxilində və ölkədən kənarda yaşayanların böyük marağına səbəb olmuşdur. Bu maraq nəticəsində Azərbaycanda muğam sənətinə üz tutan gənclərin sayı xeyli artmış, milli muğam musiqimiz dünyanın bir çox ölkələrində tanıdılmışdır. Təsadüfi deyil ki, 2010-cu ildə Kanadanın Niaqara şəhərinin meriyası və ənənəvi olaraq hər il keçirilən beynəlxalq Niaqara musiqi festivalının rəhbərliyi tərəfindən 26 avqust tarixi Beynəlxalq

Azərbaycan Muğamı Günü və İpək yolu üzərində yerləşən ölkələrin musiqisi günü elan olunmuşdur.

YUNESKO milli-mənəvi dəyərlərin qorunması və Azərbaycan mədəniyyətinin təbliği sahəsində həyata keçirilən layihələr arasında Azərbaycan muğamını Bəşəriyyətin Şifahi və Qeyri-Maddi İrsinin şah əsərləri siyahısına daxil etmişdir. Mehriban xanımın təşəbbüsü və görkəmli muğam ustalarının iştirakı ilə təşkil olunan dəyirmi masada muğam sənətinin dünyada geniş təbliğ olunması, tanıdılması məqsədi ilə Bakı şəhərində Beynəlxalq Muğam Mərkəzinin yaradılması qərarının alınması olduqca önəmli addımdır. Belə ki, 2008-ci il dekabrın 27-də cənab prezident İlham Əliyev və xanımı Mehriban Əliyevanın iştirakı ilə Beynəlxalq Muğam Mərkəzinin rəsmi açılışının elan olunması ilə muğam sənətinin inkişafına böyük təkan verildi. Bu gün neçə-neçə görkəmli muğam ustalarının konsertlərinin, muğam gecələrinin, beynəlxalq konfrans və festivalların təşkil olunduğu Mərkəzdə gənc ifaçılar Azərbaycan musiqi mədəniyyətinin əsasını təşkil edən muğam sənətinin incəliklərinə yiyələnirlər.

Fondun dəstəyi ilə gerçəkləşən layihələrin davamı olaraq hər il Qəbələ Beynəlxalq Musiqi festivalı Şərq və Qərb musiqisini, eləcə də məşhur ifaçıları, bəstəkarları bir araya gətirir. Festivala gələn çoxsaylı xarici qonaqlar, eyni zamanda, Azərbaycan musiqisinin gözəl inciləri ilə tanış olur, ölkəmizin musiqi mədəniyyəti barədə aydın təsəvvür qazanırlar. Bu, bir daha Azərbaycan incəsənətinin tanıdılması istiqamətində görülən işlərin miqyasından və uğurundan xəbər verir.

Unudulmaz və dəyərli sənətkarlara daim böyük diqqətlə yanaşan Heydər Əliyev Fondunun təşəbbüsü ilə 2005-ci ildə Bakıda və Parisdə dahi bəstəkar Üzeyir Hacıbəyovun 120 illik yubileyi keçirilmiş, Parisdə YUNESKO çərçivəsində görkəmli kimyaçı-alim, akademik Yusif Məmmədəliyevin 100 illiyi qeyd olunmuş, dünya şöhrətli ifaçılar – mərhum Mstislav Rostropoviç və xanımı Qalina Vişnevskayanın 50 illik birgə fəaliyyətinə həsr edilmiş albom və disklər hazırlanmışdır. Bundan başqa, Fondun təşəbbüsü ilə Mstislav Rostropoviçin, Şostakoviçin, Bülbülün yubileyinə həsr olunmuş beynəlxalq festivallar keçirilmişdir. Dahi Üzeyir Hacıbəyovun "Arşın mal alan" əsərinin

səhnələşdirilməsi haqqında Vyana kamera teatrı ilə razılığın əldə edilməsi də xalqımızın milli mədəniyyətinin dünyada təbliği yolunda mühüm hadisədir.

Həmçinin "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinin beynəlxalq miqyasda qeyd olunması, YUNESKO-nun "Dünya irs siyahısı"na İçərişəhərin Şirvanşahlar Saray Kompleksinin, Qobustan Qoruq Muzeyinin və Atəşgahın daxil edilməsi, tarixi mədəniyyət abidələrinin bərpası xüsusilə diqqətəlayiq hesab olunur.

Azərbaycan mədəniyyətinin, incəsənətinin qorunub saxlanılması və tanıdılması naminə Bakıda Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Müasir İncəsənət Muzeyi fəaliyyət göstərir. Muzeydə ekspozisiyaların əsasını XX əsrin ikinci yarısından bugünədək Azərbaycanın ən yaxşı avanqard rəsm və heykəltəraşlıq əsərləri təşkil edir. Muzeydə Azərbaycanın gənc, əsasən avanqard üslubda işləyən rəssam və heykəltəraşlarının minədək işi toplanmışdır. Burada Azərbaycanın xalq rəssamları Səttar Bəhlulzadə, Böyükağa Mirzəzadə, Tahir Salahov, Ömər Eldarov, həmçinin adları Azərbaycan mədəniyyəti xəzinəsinə daxil olan bir çox fırça ustası və heykəltəraşın əsərləri, Qərbi Avropa incəsənəti salonunda isə Pablo Pikasso, Salvador Dali, Mark Şaqal kimi dahi klassiklərin əsərləri nümayiş olunur.

Heydər Əliyev Fondu həm də ölkəmizin qədim tarixi abidələrinin qorunmasına və bərpasına xüsusi diqqət yetirir. Məsələn, Heydər Əliyev Fondunun dəstəyi ilə 2008-ci ildə Abşeronun ən qədim insan məskənlərindən olan Qala qəsəbəsində Dövlət Tarix-Etnoqrafiya Qoruğunun ərazisində Arxeoloji-Etnoqrafik Muzey Kompleksi yaradılmışdır. Bu Kompleks tarixi keçmişimizin canlandırılmasına, eləcə də doğma şəhərimizin turizm mərkəzlərindən birinə çevrilməsinə xidmət edir.

Eləcə də Fond ölkəmizdə və dünyada olan müxtəlif mədəniyyətlərə aid abidələrin təmiri və bərpasını həyata keçirməkdədir. Belə ki, 2008-ci ilin sentyabrında Heydər Əliyev Fondu və Roma Katolik dini icması arasında Anlaşma Memorandumu imzalanmışdır. Sənəddə müəyyənləşdirilmiş sahələr üzrə inkişaf, yenidənqurma layihələrinin gerçəkləşdirilməsi, sosial və dini təyinatlı obyektlərə yardımlar edilməsi nəzərdə tutulmuşdur. Bundan başqa, Memorandum Azərbaycanda məskunlaşan xalqların etnomədəni tərəqqisinə yönələn

tədbirlərin həyata keçirilməsini də nəzərdə tutur. Bu əməkdaşlığa, əsasən, Bakıdakı Müqəddəs Məryəm kilsəsinin asma tavan şüşələri dini mövzuda və klassik vitraj texnikasında işlənərək bədii şüşələrlə əvəz edilmiş, eyni zamanda məbədin fasadında keramik panno yerləşdirilmişdir. Fondun həyata keçirdiyi "Tolerantlığın ünvanı – Azərbaycan" layihəsi çərçivəsində Strasburq Kasedral kilsəsinin XIV əsrə aid olan beş pəncərəsi bərpa edilmişdir. 1320-1340-cı illərdə salınmış vitraj şüşələrinin üzərində Müqəddəs Məryəmin və İsa peyğəmbərin həyatı əks olunmuşdur.

Ölkəmizdə xarici ölkə mədəniyyətlərinin təbliği də əsaslı şəkildə həyata keçirilir. Belə ki, 2012-ci ildə Bakıda "Fransa inciləri" adlı sərginin həyata keçirilməsi xüsusi marağa səbəb olmuşdur. Bu sərgi vasitəsilə Luvr və Orse muzeylərini, Pompidu Mərkəzini, Versal Sarayını, Fransa Dövlət Kitabxanasını və digər mədəniyyət ocaqlarını bəzəyən 400-dən çox eksponat ölkəmizdə təbliğ olundu. Həmçinin, Azərbaycan Luvr muzeyinin İslam incəsənəti departamentinin yaradılmasında iştirak etmişdir. Bundan əlavə, Heydər Əliyev Fondu Luvr, Versal Sarayı, Strasburq Kasedral Kilsəsi, digər tarixi abidələrin bərpasında iştirak etməkdə davam edir.

Növbəti uğurlu layihə isə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın yüksək təşkilatçılıq bacarığı sayəsində olduqca nüfuzlu "Eurovision" müsabiqəsinin Bakıda ən yüksək səviyyədə təşkil olunmasıdır. Onun rəhbərlik etdiyi "Eurovision-2012" təşkilat komitəsinin uğurlu fəaliyyəti nəticəsində Bakıda keçirilən müsabiqə "Eurovision" tarixinin ən möhtəşəm şoularından biri kimi yaddaşlarda qaldı. Bu müsabiqə nəticəsində Azərbaycanın gözəlliyi, musiqisi, mədəniyyəti, qonaqpərvərliyi bütün dünyaya bəyan oldu. Həqiqətən də, bütün gözəllikləri özündə birləşdirən Azərbaycan kimi bir ölkənin vətəndaşı olduğumuza görə fəxr etməliyik.

Heydər Əliyev Fondunun mədəniyyət sahəsində gördüyü işlərdən və həyata keçirdiyi tədbirlərdən biri də mövcud kitabxanaların yenidən qurulmasıdır. Fondun bu sahədəki müsbət fəaliyyəti diqqəti cəlb edir. Artıq onlarca qəsəbə və kənd kitabxanaları yenidən qurulmuş, müasir avadanlıqlarla təmin edilmişdir.

Heydər Əliyev Fondunun fəaliyyətinin prioritet istiqamətlərindən biri də

dünya ictimaiyyətinə Dağlıq Qarabağ münaqişəsi reallıqlarının çatdırılmasıdır. Təəssüf doğuran haldır ki, Dağlıq Qarabağ münaqişəsi XX yüzilliyin tarixinə ən faciəli münaqişələrdən biri kimi daxil olmuş, milyonlarla insanın taleyində əks olunmuşdur. Tarixin səhifələrinə qanlı hərflərlə həkk olunan, unudulmayan ağrı-acısı ilə yaddaşlardan silinməyən Qarabağ hadisələrinə böyük ürək yanğısı ilə yanaşan Mehriban xanım Əliyeva çıxışı zamanı demişdir: *"Bu elə bir problemdir ki, hətta hər şey nizama salındıqdan sonra belə onu unutmaq çətin olacaqdır. Mən inanıram ki, həqiqətən Azərbaycan zəfər çalacaq və öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Dağlıq Qarabağ münaqişəsi, ilk növbədə, görünməmiş humanitar fəlakətdir. Bir milyon qaçqın-köçkünün hər birinin öz şəxsi faciəsi var.*

*Onlarla ünsiyyət zamanı bu insanların hədsiz dözümlülüyü və elə bir o qədər də hədsiz inamı adamı heyrətə gətirir. Onlar ədalətin zəfər çalacağına, işğal olunmuş torpaqların azad ediləcəyinə və yenidən ev-eşik sahibi olacaqlarına inanırlar".*

Mehriban  xanım Əliyeva, demək olar ki, bütün xarici səfərlərində, keçirdiyi görüşlərdə işğalçı Ermənistanın Azərbaycanın qədim mədəniyyət mərkəzi Qarabağda mədəni irsimizə ciddi ziyan vurmasından, tarixi yerlərimizi bərbad hala salmasından dönə-dönə, faktlarla danışır və dünya ictimaiyyətini Ermənistan silahlı qüvvələrinin vəhşiliklərinə son qoymaq üçün tədbirlər görməyə çağırır.

Mehriban xanım Əliyeva torpaqlarımızın Ermənistan tərəfindən işğal olunduğunu və bu ərazilərdə tarixi-mədəniyyət abidələrimizin məhv edildiyini dəfələrlə bəyan etmişdir: "*...Tarixi və mədəniyyət abidələrinin qorunması ölkəmiz üçün bir də ona görə vacibdir ki, Azərbaycan ərazisinin 20 faizi Ermənistanın işğalı altındadır. Həmin ərazilərdə minlərlə tarixi, mədəniyyət abidələri işğalçı qüvvələr tərəfindən məhv edilmişdir. Ölkəmizdə bir milyon qaçqın, məcburi köçkün var və onların müəyyən hissəsi hələ də çadırlarda yaşayır. Biz bu faktları beynəlxalq ictimaiyyətə çatdırmaqda davam edəcəyik".*

Həyata keçirilmiş layihələr sırasında bir neçə dildə nəşr edilmiş Ermənistanın Azərbaycana qarşı təcavüz tarixini əks etdirən "Qarabağ reallıqları" bukletlər toplusunu, erməni vəhşiliyindən bəhs edən "Müharibə və mədəni-

tarixi abidələrimiz", "Azərbaycana qarşı müharibə: mədəni irs hədəf altında" kitablarını qeyd etmək olar. Bundan başqa, Fond dünyanın müxtəlif ölkələrində Xocalı soyqırımına həsr olunmuş aksiyalar, foto və videosərgilər təşkil edir.

Qısa müddət ərzində böyük layihələri uğurla həyata keçirməyə nail olan Heydər Əliyev Fondunun cəmiyyətdə böyük inam və etimad qazanması əlbəttə ki, bütün ölkə vətəndaşları kimi Mehriban xanım Əliyevanın ömür-gün yoldaşı, ölkə prezidenti cənab İlham Əliyevin də böyük razılığına səbəb olmuşdur. O, çıxışı zamanı bildirmişdir: *"Bu Fondun xətti ilə aparılan işlər, görülən tədbirlər, irəli sürülmüş təşəbbüslər göz qabağındadır. İstər təhsil, istər səhiyyə sahəsində, mədəniyyət sahəsində, mənəvi irsimizin qorunması işində, Azərbaycanın dünya birliyində təbliğ edilməsi işində, Azərbaycanın olduğu kimi təqdimatı işində, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin geniş mənada dünya birliyinə düzgün şəkildə çatdırılması işində Heydər Əliyev Fondunun rolunu mən çox yüksək qiymətləndirirəm. Bu Fond sübut etdi ki, əgər istək olarsa, əgər iradə olarsa və əgər xoş niyyət olarsa, istənilən sahədə istənilən məsələ həll oluna bilər. Bu fondun çoxşaxəli fəaliyyətini əgər bir sözlə xarakterizə etmək mümkündürsə, mən "Xoş niyyət" deyərdim. Çünki bütün sahələrdə biz bunu görürük".*

Yüksək fəaliyyəti ilə seçilən Fondun digər ölkələrdə də (ABŞ, Rusiya, Türkiyə, Rumıniya, Gürcüstan və s.) nümayəndəlikləri fəaliyyət göstərir və onlar Azərbaycandan kənarda bir çox layihələri uğurla həyata keçirir. Azərbaycan xalqının rifahına xidmət edən humanitar proqramların effektivliyinin güclənməsi üçün bütün mövcud imkanlardan istifadə etməyi özünün vəzifəsi hesab edən Mehriban xanım Əliyeva çıxışı zamanı qeyd etmişdir ki, *"Ən böyük nailiyyətimiz, ən böyük uğurumuz Azərbaycan xalqının inamını və hörmətini qazanmağımız olub. Mən bu kürsüdən istifadə edərək bir daha hamını əmin etmək istərdim ki, Heydər Əliyev Fondu Azərbaycanın bu günü və sabahı naminə gələcəkdə də çalışmağa hazırdır. Bu yolda bizə dəstək verən, yardım edən hər bir insana, hər bir quruma – istər dövlət, istər qeyri-dövlət qurumuna, bizimlə əlaqə, əməkdaşlıq yaradan beynəlxalq təşkilatlara dərin minnətdarlığımı çatdırıram".*

Fondun cəmi 10 il müddətində fəaliyyətinə baxmayaraq Mehriban xanım Əliyevanın imzası ilə əldə olunan uğurlar, nailiyyətlər əsrə bərabərdir. Bu illər

ərzində öz missiyasını layiqincə yerinə yetirən və yorulmadan çalışan Mehriban xanımın fəaliyyət dairəsi daim diqqət mərkəzindədir və hər bir azərbaycanlı bu görülən işlərdən qürur duyur.

Əlbəttə, təmənnasız şəkildə həyata keçirilən missiyanın gözə çarpdırılması Mehriban xanım üçün bir qədər xoşagəlməzdir. Çünki "Yaxşılığı et və dənizə at" düşüncəsi ömür boyu onun əsas istəklərindən biri olaraq qalmışdır. Lakin Mehriban xanım Əliyeva, özü də söylədiyi kimi belə bir imkandan məhrumdur: *"Birinci xanım statusunda elə bir xeyriyyəçillik aksiyası keçirə bilmirəm ki, bu, ictimaiyyətin diqqətini cəlb etməsin. Bu kütləvilik amili məni sıxsa da, yaşayışıma bəzi yeniliklər gətirir və mən bunu olduğu kimi qəbul edirəm. Bu isə özünü göstərməkdən tamamilə uzaq adam kimi mənə kifayət qədər çətin olur".* Azərbaycan xalqının ölkənin birinci xanımına olan böyük rəğbət və ehtiramının sirri də elə məhz bununla bağlıdır.

Mehriban xanım Əliyevanın Azərbaycanı dünyada uğurla təbliğ etməsi onun qüsursuz ictimai-siyasi və mədəni fəaliyyətində əsas yer tutur. O, öz fəaliyyəti ilə nəinki Azərbaycanda, bütün dünyada böyük rəğbət qazanmışdır.

Bir çox ölkələrdə, şəhərlərdə Mehriban xanımın təşəbbüsü ilə Azərbaycanın tanıdılması istiqamətində bir sıra işlər həyata keçirilmiş və bu istiqamətdə aparılan fəaliyyət uğurlu nəticələr vermişdir. Belə ki, dünya mədəniyyətinin paytaxtı olan Parisdə yerləşən Eyfel qülləsinin yaxınlığında qədim və zəngin tarixi eksponatların nümayiş olunduğu Azərbaycan Mədəniyyət Mərkəzinin yaradılması ölkəmizin təbliği üçün ən əhəmiyyətli addımlardan biri hesab olunur. Bu addım mədəniyyətlərarası sivilizasiyanın əsas qüvvəsi kimi dünya mətbuatına daxil olan Azərbaycanın ən yüksək səviyyədə məşhurlaşmasına səbəb olmuşdur. Bu mərkəz həmçinin bizim ölkəmizdə də hədsiz maraqla qarşılanır. Azərbaycan Mədəniyyət Mərkəzinin binası 1904-cü ildə inşa olunmuş tarixi tikilidir. Müxtəlif ekspozisiya zallarının yaradıldığı mərkəzdə Azərbaycan tarixini əks etdirən eksponatlar – arxeoloji tapıntılar, qədim pullar, silahlar, misgərlik məmulatları təqdim olunur. Milli xalçaçılığımızın bütün istiqamətlərdə nümunələrinin təqdim edildiyi mərkəzdə yaşı yüz illərlə ölçülən xalça və xalça məmulatları sərgilənir. Burada Azərbaycan xalçaçılıq məktəblərinin tarixi və keçdiyi inkişaf yolları barədə məlumat verilir. Mərkəzin ekspozisiya-

sında zinət və müxtəlif bəzək əşyaları, xalq incəsənətinin bütün istiqamətlərinə dair nümunələr, Azərbaycan milli geyimləri sərgilənir, gənc rəssamların işləri nümayiş etdirilir. Mərkəzdə muğam zalı yaradılmış, qədim musiqi alətlərimizin sərgisi təşkil olunmuşdur. Mərkəzin kitabxanasında fransız dilinə tərcümə edilən Azərbaycan ədəbiyyatı külliyyatı, mədəniyyətimizin müxtəlif istiqamətlərinə aid nəşrlər təqdim olunur.

Əlbəttə ki, Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr çərçivəsində görülən işləri sadalamaqla bitirmək mümkün deyil. Çünki görülən işlərin miqyası bir kitab səhifələrinə sığmayacaq dərəcədə geniş və çoxşaxəlidir. İnsanların sosial rifah vəziyyətinin yaxşılaşdırılması, milli mədəniyyətimizin, mənəvi irsimizin qorunması, ölkəmizin beynəlxalq istiqamətdə tanınması naminə Fondunun prezidenti Mehriban xanım Əliyevanın bilavasitə rəhbərliyi altında həyata keçirilən layihələrin sayı isə ildən-ilə durmadan artmaqdadır.

Xüsusilə qeyd etmək lazımdır ki, Heydər Əliyev Fonduna üz tutmuş hər bir vətəndaşın müraciətinə böyük həssaslıq və diqqətlə yanaşılır, imkan daxilində həllinə yardım göstərilir. Bu, həm də Fondun daxilində insan hüquq və azadlıqlarının müdafiəsində dayanan ictimai təşkilatın öz işini layiqincə yerinə yetirməsindən irəli gəlir. Azərbaycanın birinci xanımı Mehriban Əliyeva rəhbərlik etdiyi Fondun insanlara hər zaman xüsusi diqqət və qayğı ilə yanaşacağını əminliklə vurğulayır: *"...Bəzən cəmiyyətdə insan elə bir vəziyyətə düşür ki, bütün döydüyü qapılar onun üzünə bağlı qalır. O, öz dərdi ilə, öz problemi ilə təkbaşına qalır və ona elə gəlir ki, heç bir şey və heç kəs ona kömək edə bilməz. Bu halda, o, üzünü bizim Fonda tutur. Mən demək istəmirəm ki, biz dərhal onun bütün problemlərini həll edirik. Amma o insan burada nə biganəliklə, nə soyuq münasibətlə rastlaşmaz və hökmən onun problemlərinin həlli üçün mümkün olan bütün vasitələrdən istifadə ediləcəkdir. Yəqin ki, xeyriyyəçilik, insansevərlik, mərhəmət Azərbaycan xalqının mentalitetinə, mədəniyyətinə, əsrlər boyu formalaşan ənənələrimizə xas olan ən gözəl keyfiyyətlərdən biridir və biz bu gün Heydər Əliyev Fondu olaraq bu ənənələri davam etdirməyə çalışırıq".*

Nəcib əməlləri ilə xeyirxahlıq ünvanına çevrilən, hər bir azərbaycanlının qürur yeri, fəxri olan Heydər Əliyev Fondu Mehriban xanım Əliyevanın rəh-

bərliyi ilə ulu öndərin ideyalarını rəhbər tutaraq ardıcıl və məqsədyönlü fəaliyyətini uğurla davam etdirir. Mehriban xanım Azərbaycan xalqının rifahına xidmət edən humanitar proqramların effektivliyinin güclənməsi naminə daima bütün mövcud imkanlardan istifadə etməyi özünün ən məsul vəzifəsi hesab edərək bu yolda uğurla addımlayır. Bu uğurları sevinc hissi ilə qarşılayan qədirbilən Azərbaycan xalqının hərdaim Mehriban xanımın dəstəkçisi olduğunu görmək çətin deyildir.

Azərbaycanın mədəni həyatında mühüm rol oynayan Azərbaycan-YUNESKO münasibətlərinin inkişafı və genişlənməsində ölkənin birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın əvəzolunmaz rolunu xüsusilə qeyd etmək lazımdır. 2004-cü ilin sentyabrında Mehriban xanım Əliyeva ənənəvi musiqinin, ədəbiyyat və poeziyanın inkişafına verdiyi töhfələrə, musiqi təhsili və dünya mədəniyyətlərinin mübadiləsi sahəsindəki xidmətlərinə və YUNESKO-nun ideyalarına göstərdiyi xidmətlərinə görə bu təşkilatın şifahi ənənələr və musiqi ənənələri sahəsində xoşməramlı səfiri adına layiq görülmüşdür. Bu, olduqca sevindirici haldır. İndi Mehriban xanımın adı dünyada cəmi 41 nəfər olan xoşməramlı səfirlə – M.Rostropoviç, K.Kardinal, L.Məryəm, V.Adamkus, Tereza Ana və başqaları ilə bir sırada çəkilir.

Mehriban xanım Əliyevanın YUNESKO-nun xoşməramlı səfiri təyin olunması münasibətilə ölkə prezidenti cənab İlham Əliyev təbrik nitqilə çıxış etmişdir: *"Bu gün Azərbaycanın mədəni həyatında çox mühüm bir gündür. Ölkəmizin nümayəndəsi YUNESKO-nun xoşməramlı səfiri adına layiq görülür. Bu, çox əlamətdar bir hadisədir. Çünki bu, mədəni əlaqələrimizin möhkəmlənməsi deməkdir. Mən əminəm ki, xanım Mehriban Əliyevanın YUNESKO-nun xoşməramlı səfiri təyin olunması bu sahədə bizə yardım edəcəkdir. Mehriban xanımın on ilə yaxın bir müddətdə rəhbərlik etdiyi fond mədəniyyətin inkişaf etdirilməsi, mədəni irsin qorunması, xalqımızın ənənələrinin yaşadılmasında mühüm rol oynamışdır. Onun təsis etdiyi jurnal, fondun həyata keçirdiyi müxtəlif layihə və proqramlar ölkəmizdə mədəniyyət və incəsənətin ümumi inkişafına müsbət təsirini göstərir. Əminəm ki, bu təyinatdan sonra həm Mehriban xanımın, həm də fondun fəaliyyəti beynəlxalq miqyasda daha çox nəzərə çarpacaqdır. Bu gün mənim üçün ikiqat əlamətdardır. Çünki bu yalnız*

*Azərbaycan nümayəndəsinin YUNESKO-nun xoşməramlı səfiri adına layiq görülməsi deyil, həm də mənim xanımımın təltif olunmasıdır. Çox şadam ki, onun fəaliyyəti bu cür yüksək qiymətləndirilir və tanınır. Elə bilirəm ki, o, xoşməramlı səfir adını daşımağa layiqdir. Çünki o, həmişə insanlara xoş münasibəti, xoş niyyəti ilə seçilibdir. Bu, onun xasiyyətinin fərqləndirici cəhətidir. Əminəm ki, bu, yeni işdə də fəal çalışacaq və fəaliyyəti ilə ümumi məqsədlərimizə töhfəsini əsirgəməyəcəkdir. Ümumi məqsədlərimiz isə bir-birimizi daha yaxından tanımaq, insanları, mədəniyyətləri tanıtmaq, müxtəlif xalqların və ölkələrin mədəniyyətlərindən bəhrələnməkdir. Əminəm ki, Mehriban xanım bu vəzifəni səylə yerinə yetirəcək və bu vacib işdə uğurlar qazanacaqdır".*

Xalqların təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlığını genişləndirmək yolu ilə sülhün və təhlükəsizliyin möhkəmlənməsinə xidmət göstərən YUNESKO Azərbaycanın müxtəlif beynəlxalq təşkilatlarla mədəniyyət sahəsində geniş əməkdaşlıq qurması üçün əlverişli şərait yaratmışdır.

Hazırda Mehriban xanım Əliyevanın humanist və mədəni layihələri onlarla ölkələr tərəfindən dəstəklənir. Onun nüfuzu və işgüzarlığı sayəsində Azərbaycan YUNESKO tədbirlərinin mərkəzinə çevrilmişdir. Bu silsilə tədbirlər artıq illərdir ki, davam edir və Azərbaycan həqiqətlərinin dünyada yayılmasına xidmət göstərir.

Azərbaycan mədəniyyətinin dünya arenasında nümayiş olunması istiqamətində böyük uğurlar əldə olunmuşdur. Belə ki, YUNESKO çərçivəsində N.Tusinin anadan olmasının 800 illik yubileyi, Azərbaycan alimi, şərqşünas Mirzə Kazımbəyin 200 illik yubileyi, akademik Yusif Məmmədəliyevin, məşhur xalçaçı-rəssam Lətif Kərimovun, akademik Musa Əliyevin, görkəmli yazıçı Mir Cəlal Paşayevin, məşhur rəssam Səttar Bəhlulzadənin 100 illik yubileyləri yüksək səviyyədə qeyd edilmişdir. Ümumiyyətlə, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın səyi ilə Azərbaycan-YUNESKO münasibətləri ən yüksək inkişaf səviyyəsinə yüksəlmişdir.

Həmçinin Azərbaycanla İslam Konfransı Təşkilatının müxtəlif strukturları arasında münasibətlərin inkişaf edib möhkəmləndirilməsində Azərbaycanın birinci xanımı, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın fəaliyyəti xüsusilə təqdirəlayiqdir.

Dünyanın nüfuzlu mədəniyyət qurumu – YUNESKO-nun Azərbaycanın birinci xanımına göstərdiyi yüksək etimad təkcə bir şəxsin deyil, bütövlükdə ölkəmizin uğuru olmaqla bərabər, həm də müasir dünyanın xalqımızın milli mədəniyyətinə, folkloruna, tarixinə, dilinə, incəsənətinə göstərdiyi yüksək diqqətin ifadəsidir. Bu etimad Mehriban xanım Əliyevanın timsalında Azərbaycan qadınının fədakarlığının və bacarığının beynəlxalq miqyasda təsdiq edilməsinə daha bir əyani sübutdur. Azərbaycan qadını üçün səciyyəvi olan yüksək humanizm, qayğıkeşlik və mərhəmət kimi ali mənəvi keyfiyyətlər bu gün Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın şəxsində bir daha parlaq təcəssümünü tapır.

YUNESKO-nun xoşməramlı səfiri təyin olunmasından iki il sonra Mehriban xanım Əliyeva müxtəlif sahələrdə genişmiqyaslı fəaliyyəti, ehtiyacı olan uşaqlara qayğısı, təhsilə, həmçinin islam aləmində görülən işlərə böyük dəstəyinə görə də diqqəti çəkdi və 2006-cı il noyabrın 24-də müsəlman dövlətlərinin təmsil edildiyi nüfuzlu beynəlxalq mədəni-humanitar qurum olan İslam Ölkələri Elm, Təhsil və Mədəniyyət Təşkilatının – İSESKO-nun xoşməramlı səfiri adına layiq görüldü. İSESKO-nun baş direktoru doktor Əbdüləziz bin Osman əl Tuveycri Azərbaycanın birinci xanımına fəxri adın diplomunu təqdim edərkən qeyd etmişdir ki, *“Mehriban Əliyeva – təşkilatın bu yüksək adına layiq görülmüş ilk qadındır”*. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva mükafatlandırma mərasimində İSESKO-nun xoşməramlı səfiri adına layiq görülməsini böyük sevinc hissi ilə qarşılayaraq bildirmişdir ki, *“İslam ölkələrinin elm, təhsil və mədəniyyət təşkilatı – İSESKO-nun mükafatına layiq görülmək mənim üçün böyük şərəfdir”*. Xalqlar arasında dialoqun qurulması sahəsində fəaliyyət göstərən İSESKO öz növbəsində həm də sülh və təhlükəsizliyin qarantıdır. Ümumilikdə, təşkilata 50-dən çox islam dövləti daxildir.

Qeyri-siyasi institutlar olan YUNESKO və İSESKO kimi nüfuzlu beynəlxalq təşkilatların səfiri olmaq çox şərəfli və məsuliyyətli missiyadır. Ölkəni təmsil etmək üçün ən əlverişli beynəlxalq arena sayılan bu iki təşkilat sayəsində müasir Azərbaycanın, qədim tarixi və mədəni köklərə malik xalqımızın, incəsənətimiz, musiqimiz və ədəbiyyatımızın nailiyyətlərinin bütün dünyaya

çatdırılması üçün fürsət yaranmışdır. Bu fürsətdən yararlanaraq elm, mədəniyyət, təhsil vasitəsilə İslam dünyasının malik olduğu bütün imkanları, Qərbin və Şərqin, eləcə də müxtəlif sivilizasiyaların bir-birinə nə qədər maraqlı və faydalı ola bilməsini göstərmək xoşməramlı səfir olaraq Mehriban xanım Əliyevanın əsas vəzifələri sırasındadır.

Mehriban xanımın Azərbaycanın tanıdılması, təbliğ olunması naminə tez-tez xarici ölkələrə səfər etməsi dünya arenasına yeni bir siyasətçi qadının gəlişindən xəbər verir. Ömür kitabının hər bir səhifəsini uğur və nailiyyətlərlə bəzəyən Mehriban xanım bunun sirrini məhz belə açıqlamışdır: *"Mən insanlara kömək göstərmək istəyirəm. Konkret problemləri həll etmək, yardım edə bildikdə sevinc hissi keçirmək və səndən asılı olmayan səbəblər üzündən nəsə edə bilmədikdə təəssüflənmək, qəzavü-qədər, sağalmaz xəstəlik qarşısında bütün gücsüzlüyünü dərk edərkən əziyyət çəkmək, xilas edilmiş bir uşağın təbəssümünü gördükdə isə bir daha sevinmək istəyirəm. Bu, mənim seçimimdir".*

2011-ci il aprelin 7-8-də Bakıda Ümumdünya Mədəniyyətlərarası Dialoq üzrə Forumunun keçirilməsi, eləcə də Bakının 2009-cu ildə "İslam mədəniyyətinin paytaxtı" elan edilməsi ilə bağlı qərar da Azərbaycanın birinci xanımının misilsiz fəaliyyətinin nəticəsidir.

Mehriban xanım Əliyevanın mədəniyyətlər və sivilizasiyalararası dialoq üzrə keçirilmiş beynəlxalq səviyyəli tədbirlər sahəsində gördüyü işlər Azərbaycan mədəniyyətinin, tarixinin təbliğinə böyük töhfədir. Bildiyimiz kimi, Azərbaycan qədim və zəngin musiqi mədəniyyətinə malik olan ölkədir. Azərbaycan musiqisinin ən dəyərli nümunələrindən olan muğamın qorunması, yaşadılması və dünyaya tanıdılmasında Mehriban xanımın müstəsna xidmətləri vardır.

Azərbaycan muğamının, aşıq, milli xalçaçılıq sənətinin YUNESKO tərəfindən Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs xəzinəsinə daxil edilməsi, ədəbiyyat, mədəniyyət korifeylərimizin dünyaya tanıdılması, onların yubileylərinin YUNESKO miqyasında qeyd olunması, əlbəttə ki, böyük fərəh hissi ilə qarşılanır. Ölkəmizin mədəniyyətinin dünya sferasında tanıdılması istiqamətində Azərbaycan incəsənəti, klassik musiqi, muğam, aşıq, xalçaçılıq sənəti ilə bağlı ölkəmizdə keçirilən beynəlxalq festivallar, dünyanın müxtəlif ölkələrindən gə-

lən sənətçilər, alimlər arasında fikir mübadiləsi, Azərbaycanın ev sahibliyi ilə keçirilən beynəlxalq tədbirləri qeyd etmək kifayət edər.

Məhz bu əsrarəngiz fəaliyyətin sayəsində Bakı 2009-cu ildə "İslam mədəniyyətinin paytaxtı" elan olundu. İSESKO-nun baş direktoru Əbdüləziz bin Osman-əl Tüveycri qeyd etmişdir ki, *"Bakının İslam mədəniyyətinin paytaxtı elan edilməsi islam dünyasında mədəniyyətlərarası əlaqələri möhkəmlətmək üslubudur, çünki Bakı İslam dünyasında ən qədim şəhərlərdən biridir".* Cənab Prezident İlham Əliyev Bakının mədəniyyət paytaxtı elan edilməsini böyük şərəf kimi qiymətləndirərək qeyd etmişdir ki, *"Biz islam aləminin yaxın olmasına, İslam həmrəyliyinə çalışırıq. Buna böyük ehtiyac var".* Həmin il çərçivəsində respublikamızın paytaxtı festivallar, incəsənət bayramları, beynəlxalq elmi konfranslar mərkəzinə çevrildi. Mədəniyyətimizin İslam dünyasına inteqrasiyasında böyük xidmətləri olan Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr, heç şübhəsizdir ki, Bakının İslam mədəniyyətinə verdiyi töhfələri daha da artıraraq rəngarəngləşməsinə xidmət edir.

Ölkəmizin birinci xanımı Mehriban xanım Əliyevanın yüksək əməyi nəticəsində milli-mənəvi dəyərlərimizin qorunması və təbliği, xalqımızın üzləşdiyi haqsızlıqların dünyaya çatdırılması, elmin inkişafı, təhsilin səviyyəsinin yüksəldilməsi, vətəndaşların sosial problemlərinin həlli istiqamətində həyata keçirilən bütün layihələr ölkəmizin sürətli addımlarla irəliləməsinə hesablanmışdır. Mehriban xanım Əliyevanın fəaliyyətindən danışarkən bir-iki sahənin adını çəkməklə kifayətlənmək qeyri-mümkündür. O, çoxşaxəli fəaliyyəti ilə bütün Azərbaycan xalqının dərin rəğbətini və etimadını qazanmış, Azərbaycan qadınlarına örnək, nümunə olmuşdur.

Bugünki gündə Mehriban xanım Əliyevanın geniş ictimai-siyasi fəaliyyəti dünya səviyyəsində Azərbaycan qadınının müsbət obrazının formalaşmasında mühüm rol oynayır. Onun humanitar, elm, təhsil sahələrində həyata keçirdiyi tədbirlər təqdirəlayiqdir. Təsadüfi deyil ki, öz uğurlu siyasəti, xeyirxah işləri ilə xalqın sevgisini və etibarını qazanan Mehriban xanım Əliyeva 2005-ci ildə "Lider qadınlar" İctimai Birliyinin təşəbbüsü ilə Azərbaycan Sosiologiya As-

sosiasiyasının keçirdiyi sorğunun nəticələrinə, əsasən, Azərbaycan qadınına xas olan yüksək keyfiyyətlərinə, geniş xeyriyyəçilik fəaliyyətinə görə "İlin qadını" elan edilmişdir. Bu nəticə cəmiyyətdə minlərlə insanın Mehriban xanım haqqında formalaşmış fikrinin ifadəsidir. Təsadüfi deyil ki, respublikamızda fəaliyyət göstərən 100-ə yaxın qadın təşkilatı onu özlərinin vahid lideri seçmiş, milli birlik, yekdillik nümunəsi kimi səciyyələndirmişdir. Daim Azərbaycanın tərəqqisi naminə böyük əzmlə çalışan, fəaliyyəti ilə hər kəsə böyük nümunə olan, xeyirxah, qayğıkeş qadın Mehriban xanım Əliyeva məmnunluq hissi ilə bildirmişdir: *"Mən öhdəmə götürdüyüm hər bir işə çox böyük məsuliyyətlə yanaşıram. Hər zaman öz fəaliyyətimdə çalışmışam bir neçə amala əsaslanım. Bunlar vətənpərvərlik, insansevərlik və mərhəmətlilikdir. Mənim fəaliyyətimə verdiyiniz yüksək qiymətə görə hər birinizə ürəkdən təşəkkür edirəm".*

Mehriban xanım Azərbaycanın ictimai-siyasi, mədəni həyatında böyük uğurlara əsaslanan çoxşaxəli fəaliyyətilə yanaşı təhsilini davam etməyi də qarşısına məqsəd qoymuşdur. Belə ki, o, aldığı yüksək təhsilin nəticəsi olaraq 2005-ci ildə "Eftonaziya və təbabətin insanpərvərlik problemlərinin fəlsəfi-etik aspektləri" mövzusunda elmi işini müdafiə edərək fəlsəfə elmləri namizədi-alimlik dərəcəsi almışdır.

Daim xalqın etimadını doğruldaraq böyük sevgisini qazanan, qüsursuz ictimai-siyasi fəaliyyəti ilə qəlbləri fəth edən Mehriban xanım Əliyevanın 2005-ci il noyabrın 6-da Milli Məclisdə keçirilən seçkilərdə namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən 14 saylı Əzizbəyov (indiki Xəzər rayonu) ikinci seçki dairəsindən irəli sürülmüş və 92.12% (23106) səs toplayaraq deputat seçilmişdir. 5 il müddətində xalqın etimadını layiqincə doğruldan Mehriban xanım 2010-cu ildə 14 saylı Xəzər ikinci seçki dairəsindən Azərbaycan Milli Məclisinə keçirilən seçkilərdə yenidən parlamentə deputat seçilmişdir. O, hər zaman öz millətinə, xalqına olduqca hörmətlə, sadə, səmimi, təmənnasız münasibətlə yanaşmışdır. Bu, nəticəyə əsaslanaraq demək olar ki, xalq yalnız öz sevdiklərini ucaldır, zirvələrə aparır.

Mehriban xanım Milli Məclisin deputatı kimi fəaliyyətində əsl peşəkarlıq, siyasi yetkinlik nümunəsi göstərmişdir. Onun millət vəkili olduğu Xəzər rayonunda sürətli inkişafa nəzər saldıqda yüksək dinamikanı müşahidə etmək

mümkündür. Aparılan tikinti-quruculuq işləri, insanların yaşam tərzinin yaxşılaşdırılması, uşaqlara və gənclərə qayğı istiqamətində görülən işlər göz qabağındadır. Geniş fəaliyyət imkanlarına baxmayaraq Mehriban xanımın tez-tez rayon sakinlərinə baş çəkərək problemləri, qayğıları ilə maraqlanması rayon sakinləri üçün olduqca sevindirici haldır. İndi hər kəs çox istərdi ki, Mehriban xanım Əliyeva onların yaşadığı rayondan millət vəkili olsun. Çünki Mehriban xanım təkcə rayonun sosial-iqtisadi problemləri ilə deyil, rayonun hər bir sakininin problemi ilə yaxından tanış olur, həlli üçün bütün mümkün vasitələrdən istifadə edir. Sevindirici haldır ki, bu cür qızıl ürəyə sahib olan qadın təkcə millət vəkili olduğu Xəzər rayonunun deyil, Azərbaycanın hər bir bölgəsinin sakinləri ilə yaxından maraqlanır və lazımi köməyini əsirgəmir. Onun tez-tez Bakıətrafı qəsəbələrdə olması və yeni sosial-mədəni obyektlərin açılış mərasimlərində iştirakı deyilənləri bir daha təsdiqləyir. Çünki millət vəkili təkcə bölgəsi üçün deyil, dövləti və milləti üçün böyük işlər görən bir insandır.

Mehriban xanım Əliyevanın fəaliyyətinin əsasında insan amili dayandığından, böyük humanistlik nümayiş etdirərək bir neçə dəfə Amnistiya Aktını da gerçəkləşdirmişdir. Bu addımın nəticəsi olaraq minlərlə məhbus qaranlıq dünyadan işıqlı həyata, azadlığa buraxılmış, yollarını intizarla gözləyən ailəsinə, övladına qovuşmuşdur. Bu, vətəndaşlara qarşı diqqət və qayğının bariz nümunəsi olmaqla yanaşı, Azərbaycanda cəza siyasətinin humanistləşməsi kimi bir dəyərin formalaşmasına, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan ideyanın daha da möhkəmləndirilməsinə xidmət edən bir addımdır. Humanistliyi, xeyirxahlığı ilə hər zaman diqqət mərkəzində olan Mehriban xanım çıxışı zamanı demişdir: – *“İnsanları bağışlamaqla biz həm onları normal həyata qaytarırıq, həm də müasir Azərbaycanın humanizm prinsipləri əsasında inkişafını nümayiş etdiririk. Cəmiyyətdə olan bütün ağır problemləri mərhəmətlə, insansevərliklə həll etməyə çalışmaq lazımdır. Fikrimcə, vətəndaş cəmiyyəti elə bir cəmiyyətdir ki, orada bütün azadlıqlar, qanunun aliliyi mövcuddur, vətəndaşlar fəaldırlar, cəmiyyətdə birlik və həmrəylik var. Bu, vətəndaş cəmiyyətinin formalaşmasında ən əsas prinsiplərdən biridir”.*

Mehriban xanım Əliyeva millət vəkili olaraq bu kimi fəaliyyətləri ilə ölkənin siyasi həyatında hər zaman aktiv iştirak etməkdədir. Ölkənin birinci

xanımının fəaliyyəti ölkə hüdudlarını çoxdan aşaraq beynəlxalq xarakter almışdır. O, hər zaman Azərbaycanın müxtəlif ölkələrlə münasibətlərinin inkişafı üçün böyük səylə çalışır. Onun həm millət vəkili, həm də ictimai xadim kimi fəaliyyəti Azərbaycan cəmiyyətinin formalaşmasına, bu cəmiyyətdə son onilliklərə qədər arxa planda qalmış bir sıra ideyaların, dəyərlərin qabardılmasına, ölkə vətəndaşına qayğı və humanizmin göstərilməsinə səbəb olmuşdur. Mehriban xanım millət vəkili kimi üzərinə düşən bütün vəzifələri şərəflə, ləyaqətlə, vicdanla həyata keçirir.

Həqiqətən də, Mehriban xanımın gördüyü işləri sadalamaqla bitirmək mümkün deyil. Onun çoxşaxəli fəaliyyəti müasir tariximizin ən parlaq səhifələrini təşkil edir. Ölkəmizin təhsil sisteminin inkişafında xidmətlərinə, milli mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsi üçün gördüyü işlərə, bədii gimnastika üzrə 27-ci dünya çempionatının respublikamızda yüksək səviyyədə hazırlanıb keçirilməsinə, genişmiqyaslı xeyriyyəçilik fəaliyyətinə görə Milli Qəhrəman Çingiz Mustafayev Fondu və ANS Şirkətlər Qrupu Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanı "2005-ci ilin adamı" elan etmişdir. Mehriban xanımın gördüyü bütün işlər xalq tərəfindən böyük razılıq və rəğbətlə qarşılanır. Xalq tərəfindən belə sevilmək, sözsüz ki, mükafatların ən gözəlidir. Mehriban xanım çıxışı zamanı demişdir: *"Təbiidir ki, mən öz işlərimi qurub-planlaşdıranda heç bir mükafat barədə düşünmürdüm. Mən sadəcə öz səylərimi, qüvvəmi qarşıya qoyduğum bir sıra məsələlərə yönəltmişdim. Mən hər hansı bir fəaliyyətimə başlayarkən məsuliyyətimi hiss edirdim.*

*Hesab edirəm ki, işin vacibliyi və xarakterindən asılı olmayaraq, əsil məsuliyyət insanın özü qarşısında, özünə verdiyi vədləri qarşısında olan məsuliyyətdir. Bir daxili tələb olaraq, mən hər addımımda bu məsuliyyəti hiss edirəm. Digər tərəfdən, bu, sizlərin, cəmiyyətin, millətin qarşısında olan məsuliyyətdir və onun böyüklüyü inkaredilməzdir. Bu sırada mənə ünvanlanan məktubların, göstərilən etimadların sayı nə qədər çox idisə, bunlar məni bu işləri bir o qədər çox davam etdirməyə çağırır, bunların mənə arxa olduğunu və qüvvə verdiyini duyurdum.*

*Bu gün mən ANS Şirkətlər Qrupu və Milli Qəhrəman Çingiz Mustafayevin adını daşıyan Fondla yanaşı, mənə inanan, etimad göstərən, məni dəstəkləyən hər bir insana öz dərin minnətdarlığımı bildirmək istəyirəm".*

Ölkəmizin birinci xanımı Mehriban Əliyeva indiyə qədər ölkə daxilində və həmçinin dünya arenasında bir sıra nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən saysız-hesabsız mükafatlara, təltiflərə layiq görülmüşdür. Əlbəttə ki, bir Azərbaycan qadınının ölkə daxilində və dünya miqyasında günəş kimi işıq saçmasına, yüksək titullara, mükafatlara layiq görülərək Azərbaycanımızın adını zirvələrə daşımasına sevinməmək mümkün deyil.

Mehriban xanım Əliyevanın mükafatları sırasında ilk olaraq 2005-ci il iyunun 9-da ictimai, mesenatlıq və xeyriyyəçilik fəaliyyətlərinə görə təhsil və mədəniyyət müəssisələrinin dəstəklənməsində, Rusiya və Azərbaycan xalqları arasında dostluğun möhkəmlənməsində sanballı töhfələrinə görə Rusiyanın "Yüzilliyin mesenatları" Beynəlxalq Xeyriyyə Fondunun "Yaqut Xaç" ordeninə layiq görülməsini qeyd etmək olar.

Hər zaman xeyirxah, nəcib fəaliyyəti ilə fərqlənən Mehriban xanımın genişmiqyaslı ictimai fəaliyyəti, Heydər Əliyev Fondunun prezidenti kimi təhsil, səhiyyə, mədəniyyət, ekologiya və digər sahələrdə həyata keçirdiyi mühüm layihələri, YUNESKO və İSESKO kimi beynəlxalq təşkilatlarda fəal iştirakı, bir sözlə, sivilizasiyalararası dialoq və əməkdaşlığa, fərqli mədəniyyətlərin qovuşmasına dəyərli töhfə verməsi əsas götürülərək 2007-ci il aprelin 27-də İslam Konfransı Təşkilatı Gənclər Forumu tərəfindən "Sivilizasiyalararası dialoqun qlobal miqyasda təşviqinə görə" mükafatına layiq görülmüşdür.

Cenevrədə keçirilən Dünya Səhiyyə Təşkilatı İcraiyyə Komitəsinin 120-ci sessiyasının yekdil qərarı ilə ana, uşaq və ailə sağlamlığının qorunması və möhkəmlənməsi işində müstəsna xidmətlərinə görə ölkənin birinci xanımı 2007-ci ilin mayında Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) İhsan Doğramacı Ailə Sağlamlığı Fondunun mükafatı və həmçinin genişmiqyaslı xeyriyyəçilik fəaliyyəti, bəşəriyyətin ali ideyalarına xidmət sahəsində yüksək nailiyyətlərinə görə Rusiyada "Qızıl ürək" beynəlxalq mükafatına layiq görülmüşdür.

Xeyirxahlıq və qayğıkeşliyin simvoluna çevrilən Mehriban xanım yetim və kimsəsiz uşaqlara, müharibə və təbii fəlakətdən zərər çəkmiş insanlara yar-

dım göstərilməsi sahəsində İslam Konfransı Təşkilatı ilə yüksək səviyyədə əməkdaşlığa görə 2008-ci ilin iyununda "İKT-nin humanitar məsələlər üzrə xüsusi elçisi" diplomu ilə təltif edilmişdir.

Əlbəttə, hər bir mükafat yüksək əməyinin qarşılığı olaraq Mehriban xanım üçün qiymətli və əvəzsizdir. Lakin dəyəri ölçülməyəcək dərəcədə ucalığı tərənnüm edən bir mükafat var ki, onun ürəyini riqqətə gətirir və qəlbində fərəh hissi oyadır. Məhz həmin mükafat Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 2009-cu il 5 may tarixli sərəncamı ilə Azərbaycan Respublikasının ictimai-siyasi və mədəni həyatında səmərəli fəaliyyətinə görə Mehriban xanıma təqdim olunmuşdur. Bu, müstəqilliyimizin banisi, xalqın sevimlisi ulu öndərin adına təsis olunmuş Heydər Əliyev mükafatıdır.

Ölkə hüdudlarını aşan xeyriyyəçilik fəaliyyətinin nəticəsidir ki, 2009-cu il sentyabrın 14-də Azərbaycan ilə Polşa arasında dostluq münasibətlərinin inkişafındakı xidmətlərinə görə birinci xanım Polşa Respublikasının "Xidmətlərə görə" Böyük Komandor Xaçı ordeni, 2010-cu il fevralın 15-də isə Fransaya münasibətdə göstərdiyi xidmətlərinə və nümayiş etdirdiyi sadiqliyinə görə Fransa Respublikası Prezidentinin Sərəncamı ilə "Şərəf Legionu" ordeninin zabit dərəcəsi ilə təltif edilmişdir.

Həmçinin xoşməramlı səfirə 2010-cu il iyulun 30-da YUNESKO-nun "Qızıl Motsart" medalı təqdim edilmişdir.

2011-ci il iyunun 2-də Ermənistanın işğal etdiyi ərazilərdən qaçqın və məcburi köçkün düşmüş insanlar üçün Heydər Əliyev Fondunun həyata keçirdiyi humanitar proqramlar, habelə türk dünyası mədəni irsinin zəngin parçası olan Azərbaycan türklərinin maddi və qeyri-maddi mədəniyyət abidələrinin qorunması və təbliği sahəsində böyük xidmətlərinə görə Mehriban xanım Əliyeva Türk Dünyası Yazarlar və Sənətçilər Vəqfinin (TÜRKSAV) "Türk dünyasına xidmət" mükafatına layiq görülmüşdür.

Beynəlxalq arena üzrə qadın liderlər arasında daim ön cərgədə qərarlaşan Mehriban xanım Əliyeva 2011-ci il iyunun 24-də Krans Montana Forumunun Qızıl medalı, Beynəlxalq polis təşkilatı – İNTERPOL-un baş katibi Ronald Nobl tərəfindən isə "Daha təhlükəsiz dünyanın yaradılmasında xidmətə görə" yadigar medalı ilə təltif olunmuşdur. Baş katib R.Nobl qeyd etmişdir ki, Mehriban xanım Əliyeva dünyada bu medalın təqdim olunduğu ilk şəxsdir.

Şübhəsizdir ki, insan həyatının ən maraqlı illərini, unudulmaz tələbəlik həyatını əhatə edən sevimli universitet tərəfindən yüksək elmi dərəcəyə layiq görülmək olduqca qürurvericidir. Sevindirici haldır ki, məhz Mehriban xanım Əliyevaya 2012-ci il aprelin 13-də məzunu olduğu universitetdə "İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Fəxri professoru" diplomu və xatirə nişanı təqdim olunmuşdur. Təntənəli təqdimat mərasimi universitetdə yerləşən Tibb Tarixi Muzeyinin binasında keçirilmişdir. Təqdimat sonrası Mehriban Əliyevanın nitqi: – *"Bu gün doğma universitetin divarları arasında olmaq mənim üçün çox sevindiricidir. Düşünürəm ki, mən onu əvvəlki kimi "Bizim universitet" adlandıra bilərəm. Bu təhsil müəssisəsi ilə məni təkcə tələbəlik illərim və gələcək peşəm olan həkimliyə ilk addımlarım deyil, həmçinin gənclik xatirələri, Moskvada yaşadığım çox maraqlı illər bağlayır. Bu illərdə tamamilə yeni biliklər dünyası açılır, gələcək peşə müəyyənləşir, intellektual potensial formalaşır. Sözsüz ki, bu illər ərzində universitetdə çox şey dəyişib. Hətta universitetin adı dəyişib, yeni auditoriyalar, mühazirə zalları, laboratoriyalar, tədris vəsaitləri, müasir təhsil texnologiyaları yaradılıb. Ancaq mən tam əminəm ki, təhsil müəssisəsinin əsası olan yüksək maarifçilik əhval-ruhiyyəsi qorunub saxlanılıb. Əminəm ki, əvvəllər olduğu kimi, indi də burada tələbkarlıqla nəvaziş, elmi nüfuz, ənənə, demokratiya və fundamentallıq bir arada mövcuddur. Mən doğrudan da çox fəxr edirəm ki, tələbəlik illərim Seçenov adına Birinci Moskva Tibb Universitetinin divarları arasında keçib. Mən burada yalnız nəzəri və praktik biliklərə yiyələnməmişəm. Həkimlik xüsusi peşədir. Bu, ruh və qəlb peşəsidir. Bu, dərdə şərik olmaq və şəfqət elmidir. Bu, insanların halına yanmaq, ehtiyacı olanlara əl uzatmaq peşəsidir. Bu, altruizmdir. Mənim həyatım elə gətirib ki, artıq çoxdandır öz peşəmlə məşğul olmuram. Amma fəaliyyətimin hər bir sahəsində, xüsusən də Heydər Əliyev Fondunun prezidenti vəzifəsində mən məhz bu prinsiplərə, bu əsasa arxalanmağa çalışıram".*

Həmçinin ölkənin birinci xanımına 2012-ci il aprelin 13-də MDB iştirakçısı olan dövlətlərin Humanitar Əməkdaşlıq Şurası (HƏŞ) və MDB iştirakçısı olan ölkələrin Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondu (DHƏF) tərəfindən elm, təhsil, mədəniyyət və incəsənət sahələrində böyük uğur və töhfələrə,

dünya nailiyyətləri səviyyəsinə uyğun olan və MDB ölkələrinin humanitar əməkdaşlığına şərait yaradan humanitar fəaliyyətə görə “Birlik Ulduzları” dövlətlərarası mükafatı təqdim edilmişdir.

Humanist və xeyirxah fəaliyyətilə dillər əzbərinə çevrilən Mehriban xanım Əliyevaya uğurlarının davamı olaraq 2012-ci il iyunun 29-da Krans Montana Forumunun “Prix de la Fondation” mükafatı təqdim edilmişdir. Forumun ən ali mükafatı olan “Prix de la Fondation” mükafatı beynəlxalq səviyyədə fəaliyyəti ilə seçilən və rəğbət qazanan insanlara verilir. Bu sırada qadınlar olanda isə mükafat daha böyük məna və mahiyyət kəsb edir. Krans Montana Forumunun təsisçisi və prezidenti, səfir Jan Pol Karteron: *“Mehriban Əliyeva dünyada humanitar fəaliyyəti ilə diqqət çəkir, zərurət mövcud olan yerləri nəzərdən qaçırmır”.* Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Krans Montana Forumu çərçivəsində “Qadın hüquqları insan hüquqlarıdır, insan hüquqları isə qadınların hüququdur” mövzusunda plenar iclasdakı çıxışı zamanı demişdir: *“Mən qadın olaraq siyasi və iqtisadi azadlıqlara üstünlük verirəm. Bu, qadınlara imkan verəcəkdir ki, onlar ölkənin bütün həyatında, bütün siyasi-iqtisadi sahələrdə fəal iştirak edə bilsinlər. Bununla da onlar öz azadlıqlarını bərqərar etmiş olacaqlar. Qadınların iqtisadi azadlığı kişilərlə bərabər olaraq onlara əmək azadlığı və digər azadlıqları vermiş olacaq”.*

Heydər Əliyev Fondunun fəaliyyətinə, xarici ölkələrdə həyata keçirdiyi layihələrə nəzər salsaq görərik ki, Mehriban xanım Əliyevanın təqdim olunan hər bir mükafata tam mənəvi haqqı vardır. Bu layihələrdən biri də məhz Mehriban xanım Əliyevanın təşəbbüsü və dəstəyi ilə dost ölkə Pakistanın zəlzələdən zərər çəkmiş Müzəffərabad şəhərinin əhalisinə yaxından köməklik göstərməsi olmuşdur. Əsas məramlarından biri xeyriyyəçilik olan Heydər Əliyev Fondu da bu nəcib missiyada yaxından iştirak etmişdir. Pakistanın nüfuzlu “Daily Times” qəzeti və Qadın Könüllülər Təşkilatı Heydər Əliyev Fondunun 2012-ci ildə Pakistanın bütün əyalətlərində keçirdiyi humanitar aksiyalara, o cümlədən təhsil və səhiyyə sahəsində işlərinə görə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanı “Humanizm simvolu – 2012-ci ilin adamı” elan etmişdir.

Bütün bu mükafatlar, təltiflər böyük xeyriyyəçilik fəaliyyətinin, xalqlar və mədəniyyətlərarası əlaqələrin inkişafına verilən əvəzsiz xidmətlərin əyani sübutudur. Mehriban xanımın birbaşa təşəbbüsü və təşkilatçılığı ilə həyata keçirilmiş, yaxud reallaşmaqda olan layihələrə, proqramlara nəzər saldıqca onun həqiqətən də bu adlara layiq olduğunu görmək olar.

Əlbəttə, Mehriban xanım Əliyevanın geniş fəaliyyəti bununla məhdudlaşmır. O, 2004-cü il dekabrın 28-də Azərbaycan Milli Olimpiya Komitəsinin IV, 2013-cü il aprelin 3-də isə VI Baş Assambleyasında Milli Olimpiya Komitəsinin (MOK) İcraiyyə Komitəsinin üzvü seçilmişdir.

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva 2013-cü il iyunun 7-də keçirilən hakim Yeni Azərbaycan Partiyasının V qurultayında partiyanın sədr müavini seçilmişdir. Azərbaycanın ictimai-siyasi həyatında kifayət qədər tanınan, müsbət imicə malik olan, ölkəmizin dünyada tanınması üçün böyük işlər görən Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın partiyanın sədr müavini seçilməsi, partiya rəhbərliyində təmsil olunması partiyanın nüfuzunun artmasına, həmçinin partiyanın başqa ölkələrdə daha yüksək səviyyədə əlaqələrinin qurulmasına şərait yaratmışdır.

Fransada yerləşən Ərəb İrsi Mədəniyyət Mərkəzinin Misirin “Nefertiti Media Production” şirkəti ilə birgə keçirdiyi sorğunun nəticələrinə, əsasən, Azərbaycanın birinci xanımı, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva 2014-cü il üzrə dünyanın ən nüfuzlu xanımı elan edilmişdir. Fransa və Ərəb ölkələrinin tələbə, jurnalist və internet istifadəçiləri arasında keçirilən sorğu 2013-cü il martın 8-dən 2014-cü il yanvar 10-a qədər olan müddəti əhatə etmişdir. Sorğuya hökumət başçısı, iri müəssisələrin və xeyriyyəçi təşkilatların rəhbərləri olan xanımların adları salınmışdır. Qeyd edək ki, Mehriban xanım Əliyeva bu ada YUNESKO-nun xoşməramlı səfiri kimi fəaliyyətinə, mədəniyyətin və beynəlxalq mədəni mübadilənin təbliğinə, elm, sağlamlıq, idman, təhsil, texnologiya, ətraf mühit sahəsindəki nailiyyətlərinə, Bakıda Beynəlxalq Muğam Mərkəzinin yaradılması, kimsəsiz uşaqlara qayğı və digər xeyirxah xidmətlərinə görə layiq görülmüşdür.

Azərbaycanın birinci xanımı 2014-cü ilin may ayında sivilizasiyalararası dialoqa verdiyi töhfələrə, həmçinin Almaniyada türk dünyasının tanıdılmasına,

Azərbaycan-Almaniya əlaqələrinin inkişafındakı xidmətlərinə görə Türk-Alman Dostluq Federasiyası tərəfindən təsis olunmuş və qədim yunan ilahələrindən Kübelenin adını daşıyan fəxri mükafata layiq görülmüşdür.

2014-cü ildə Mehriban xanım Əliyeva ölkənin ictimai, sosial və mədəni həyatında fəal iştirakına, Azərbaycan mədəniyyətinin dünyada təbliği sahəsindəki xidmətlərinə, ümumdünya mədəni irsinin qorunub saxlanması işinə dəstəyinə, sosial ədalət və humanizm prinsiplərinə sadiqliyinə görə Böyük Britaniya jurnalı tərəfindən "İlin Birinci Xanımı" mükafatına layiq görülmüşdür.

2014-cü il avqust ayının 11-də Rusiyanın Həştərxan vilayətinin qubernatoru Aleksandr Jilkin Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın Həştərxan vilayəti və Azərbaycan Respublikası arasında əməkdaşlıq və dostluq münasibətlərinin inkişafı və möhkəmləndirilməsi istiqamətində böyük səylərinə əsasən "Həştərxan vilayəti qarşısında xidmətlərinə görə" ordeni ilə təltif edilməsinə dair sərəncam imzalamışdır. Heydər Əliyev Fondu Həştərxan ərazisində bir sıra mühüm sosial layihələri həyata keçirməkdədir. Belə ki, Həştərxanda ulu öndər Heydər Əliyevin abidəsi ucaldılmış, 11 saylı Heydər Əliyev adına məktəb və məktəbyanı sahə bərpa edilmiş, 2012-ci ildə Azərbaycan və Rusiya arasında dostluq körpüsü açılmışdır. Fond tərəfindən realizə edilən layihələr sırasında Knyaz Vladimirin abidəsi və "Meçta" uşaq əyləncə şəhərciyi də yer alır. Fond, həmçinin 24 yerlik uşaq bağçasının tikintisini də həyata keçirmişdir. Qeyd edək ki, Mehriban xanım Əliyeva Polşa Respublikasının Ali Komandor Xaçının və "Şanlı legion" ordeninin kavaleridir.

Bu gün Azərbaycan qadınının əzəmətini bütün dünyada tanıdan, Azərbaycan cəmiyyətinin yaratdığı hüquqi normalardan yararlanaraq bu prinsiplər əsasında dünyaya qapı açan Mehriban xanım Əliyeva öz fəaliyyəti ilə xeyriyyəçilik və humanist layihələrə imza atır, ictimai-siyasi, mədəni, sosial proseslərdə fədakarlıq nümunəsi göstərir. Sözsüz ki, onun bu inadkarlığı və prinsipial qətiyyəti tərbiyə aldığı ocaq və ailə ilə bağlıdır.

Millətini sevən, onun gələcəyi, tərəqqisi uğrunda bütün gücü ilə çalışan əsl ziyalı xanım Mehriban Əliyeva artıq dünya miqyasında Azərbaycan qadınının simvoluna çevrilmişdir. O, hər zaman çalışmışdır ki, gördüyü işlərlə

Azərbaycanın dövlətçiliyinin qorunmasına və onun dünyada lazımi səviyyədə təbliğinə nail olsun. Bu, onun vətəninə, xalqına olan böyük sevgisinin təcəssümüdür. Sevgi ailədən başlayır deyirlər. Bir çox uğurlara imza atan Mehriban xanım nüfuzlu ictimai xadim olmaqla yanaşı gözəl həyat yoldaşı, mehriban ana, vəfalı dost, olduqca zərif bir qadındır. Yüksək vəzifələr, elmi titullar, ictimai həyatda fəallıq onu bu ümdə insani keyfiyyətlərdən əsla məhrum edə bilməmişdir. Gözəllik, qədd-qamət, zəriflik, yüksək zəka, əməksevərlik, qayğıkeşlik, həssaslıq, səmimiyyət, yüksək əxlaq – bütün bunlar Mehriban xanıma xas olan xüsusiyyətlərdir.

Əlbəttə ki, hər kəsin həyatında ailə tərbiyəsi, mədəniyyəti olduqca böyük əhəmiyyətə malikdir. Milli jurnalistikamızın patriarxlarından olan Nəsir İmanquliyev, məşhur yazıçı Mir Cəlal Paşayev kimi ziyalıların nəvəsi olmuş, Arif Paşayev kimi tanınmış alim, akademik və milyonların qəlbində özünün əbədi heykəlini ucaldan, görkəmli şərqşünas, professor Aida xanım İmanquliyevanın ailəsində dünyaya göz açmış, böyüyüb boya-başa çatmış Mehriban xanımın necə yüksək ziyalı təbəqənin tərbiyəsi ilə qidalanması bariz nümunədir. Görkəmli ziyalıların ailəsində yetkinləşən, tərbiyə alan və həyata sağlam baxışı formalaşan Mehriban xanıma hələ uşaq yaşlarından insan dəyərlərinə hörmətlə yanaşmaq, poeziya, mədəniyyət və musiqini sevmək, millətinə sadiq olmaq öyrədilmişdir. Elə ona görədir ki, Mehriban Əliyeva öz həyatını xalqının rifahı, milli və dünya mədəni irsinin inkişafına həsr etmiş, öz mədəniyyəti, xeyirxahlığı, nəcibliyi, səmimiyyəti, humanistliyi ilə milyonların ürəyini fəth etmişdir.

Düzgün tərbiyə valideynlər üçün hər zaman aktual məsələlərdəndir. Məhz bu baxımdan ictimaiyyətin böyük hörmətini qazanmış nüfuzlu elm xadimi, sevimli ve qayğıkeş ana Aida xanım sevimli qızları Nərgizin və Mehribanın təlim-tərbiyəsi ilə çox ciddi məşğul olardı. Bu gün Aida xanımın ruhu şaddır. Ona görə ki, aşıladığı tərbiyəni, xeyirxah əməlləri onun gözəl qızları layiqincə davam etdirirlər. Müsahibələrinin birində Mehriban xanım deyir: *"Biz bacımla birlikdə demək olar ki, ailəvi ənənələri mənimsəyirdik. Bütün mərasimləri, doğum günlərini, elmi dərəcələrin alınmasını birlikdə qeyd edirdik – bir masanın arxasına üç-dörd nəslin nümayəndəsi toplanardı. Belə görünür ki, insanda öz nəslinə, köklərinə bağlılıq da belə yaranır".*

